www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 mart 2015-ci il Cümə № 63 (6091) Qiymәti 40 qəpik

Xəbər

**Bakıda 3 uşaq anası özünü asdı**

yazısı səh.3-də

Gündəm

**Jirinovski və Bzejinskidən iki fərqli Azərbaycan bəyanatı**



LDP lideri rus qoşunlarını Qarabağa çağırıb; Amerikalı politoloq isə "Rusiya təhlükəsi" ilə bağlı xəbərdarlıq edib

yazısı səh.9-da

**Cəbhə xəttindəki lokal döyüşlər total savaşa keçə bilərmi?**

yazısı səh.11-də

**Fransadakı təyyarə qəzası ilə bağlı sensasion faktlar - pilot qəsdən edib**

yazısı səh.3-də

**Əfv ümidləri may ayına qaldı**

yazısı səh.4-də

**İsrail Azərbaycanı yəhudilər üçün təhlükəli 40 ölkənin siyahısına salıb**

yazısı səh.10-da

**Nemtsovun qətli ilə bağlı yeni versiya**

yazısı səh.3-də

**Qarabağ ermәniləri ilə bağlı "Peşmanlıq qanunu": kim nə deyir...**

yazısı səh.10-da

**Türkiyədə 33 can alan donuz qripi ölkəmizə də keçə bilərmi?**

yazısı səh.5-də

**Yay vaxtına keçidin faydası çoxdur, yoxsa ziyanı?**

yazısı səh.12-də

**Aslan Aslanovun Şəmkir stadionunu əldən verməsinin sirri**

yazısı səh.5-də

**Bakı yollarında bayram qazhaqazı...**

yazısı səh.12-də

**Azərbaycanda güclü zəlzələ gözlənilmir**

yazısı səh.3-də

# ABŞ yenidən Qafqaza qayıdır

# AMERİKANIN YENİ İNQİLAB PLANI TİFLİSDƏN BAŞLAYIR

Vaşinqton Saakaşvilini hakimiyyətə qaytarmaq işinə start verib; prezident İlham Əliyevin çıxışı göstərir ki, Azərbaycan iqtidarı Qərbin planlarından xəbərdardır; mümkündür ki, Gürcüstanda baş verə biləcək inqilabi proseslər ölkəmizə də sıçrasın, amma...




yazısı səh.7-də

# Parisdən Azərbaycana 24 aprel - Qarabağ reveransı

Ollandın saxta soyqırımın "yubiley" törəninin ardınca İrəvandan Bakıya gəlmək istəyinin azı, 4 səbəbi var; prezidentlərin Paris görüşündən dərhal sonra erməni təxribatı təsadüf idimi?

yazısı səh.8-də



**Müdafiə nazirinin müharibə bəyanatlarına reaksiyalar gəldi**

yazısı səh.6-da



**Dubay şahzadəsi Hacıqabulda ova başlayıb**

yazısı səh.2-də



*Mirzə Sakit:*
**"Onlar ölkəyə rəhbərlik etsələr, sevmədiklərini küçədəcə öldürərlər"**

yazısı səh.4-də

# 27 mart 2015

## Putin Rusiyanı qarışdırmaq istəyənlərə ultimatum verdi

«Rusiyanı əzmək, qorxutmaq hələ heç kimə nəsib olmayıb, bundan sonra da olmayacaq»



**«Rusiyanın vəziyyəti əbədi olaraq belə qala bilməz. Vəziyyətin yaxşıya doğru dəyişməsi bizim daima güzəştə getməyimiz və ya kiminsə qarşısında əyilməyimiz yox, daha da güclənməyimiz hesabına ola bilər». Bu bəyanatla Rusiya prezidenti Vladimir Putin Federal Təhlükəsizlik Xidmətinin martın 26-da keçirilən kollegiya iclasında çıxış edib.**

Putin bildirib ki, Rusiyanın ona qarşı olan fəaliyyət və addımlara hər zaman adekvat cavabı olacaq: «Rusiyanı əzmək, qorxutmaq hələ heç kimə nəsib olmayıb, bundan sonra da olmayacaq. Əleyhimizə olan bütün addımlara layiqli cavabımız olacaq». Putin qeyd edib ki, 2016 və 2018 seçkiləri ilə bağlı Rusiyada təxribat xarakterli aksiyaların keçirilməsi planlaşdırılır: «Qərb xüsusi-xidmət orqanlarının öz məqsədləri naminə Rusiyadakı qeyri-hökumət təşkilatlarından və siyasi qurumlardan istifadə cəhdləri davam edir. Bütün bunlar hökumətə qarşı yönəlib və ölkə daxilində sabitliyi pozmaq məqsədi daşıyır.

Bir neçə dəfə demişəm və yenidən təkrar etməyə hazıram - müxalifətlə dialoqa hazırıq və vətəndaş cəmiyyəti ilə böyük məna-da tərəfdaşlığı davam etdirəcəyik. Hökumətin fəaliyyətini və ya fəaliyyətsizliyini əsaslı şəkildə tənqid edənləri hər zaman dinləyirik. Dialoq və tərəfdaşlıq vacib və faydalıdır. Bu istənilən ölkəyə, eləcə də bizə çox lazımdır. Sifariş icra edənlərlə, öz ölkəsini qoyub başqa ölkənin maraqlarına xidmət edənlərlə isə diskussiyaya girmək mənasızdır".

## Bakı sakini işığını kəsən mühəndisin ayaqlarını doğradı

**Bakıda ev sahibinin işıq borcu onun daha bir cinayətə əl atmasına səbəb olub. Sabunçu sakini borcu olduğuna görə işığını kəsmək istəyən mühəndisin ayaqlarını doğrayıb.**

Sabunçu qəsəbəsi, Natavan küçəsində elektrik enerjisinə borcu olduğu üçün rayon elektrik şöbəsinin mühəndisi, 1980-ci il təvəllüdlü Teymur Dadaşov tərəfindən enerjisi dayandırılan zaman Tengiz adlı şəxs onun hər iki ayağından kəsici alətlə vurub. Mühəndis yaralı vəziyyətdə xəstəxanaya yerləşdirilib.

## "Bakı 2015": Tamaşaçı Məlumat Mərkəzi açıldı

**"Bakı 2015"-də ilk Avropa Oyunlarının bir hissəsi olmaq istəyən yüz minlərlə insanı məlumatlarla təmin edəcək Avropa Oyunlarının Tamaşaçı Məlumat Mərkəzi ictimaiyyətə təqdim edilib.**

Lent.az-ın məlumatına görə, 20-yə yaxın operator Bakı 2015 Oyunları, yarış obyektləri, idman növləri, yarış cədvəli, bilet satışı (qiymətlər, biletin alınması yolları, satış məntəqələri və onların açılış saatı, «Şanslı Qalib» kampaniyası), yarış obyektlərinə giriş, ticarət imkanları, mərasimlər və nəqliyyatla bağlı Azərbaycan və ingilis dillərində məlumat verəcək.

Xəttə zəng vuranları komediya ustası, aktyor və aparıcı, "Bakı 2015"-in Ulduz Elçisi Murad Dadaşov salamlayacaq.

Ölkəyə səyahət etmədən öncə məlumat almaq istəyən beynəlxalq qonaqlar üçün məlumat xətti +994 77 2015 000 nömrəsidir və zənglərin qiyməti zəng olunan ölkənin beynəlxalq zəng tariflərinə əsasən təyin ediləcək.

Qeyd edək ki, "Bakı 2015"-də 20 idman növü təmsil olunacaq: 16 Olimpiya idman növü və 4 qeyri-olimpiya idman növü. Avropanın 6000-dən çox idmançısı yarışların davam edəcəyi 17 gün ərzində öz ölkələrini təmsil edəcəklər.

## Bakıda ata qızını qətlə yetirib

**Bakıda qətl törədilib. Sabunçu Rayon Polis İdarəsindənAPA-ya verilən məlumata görə, hadisə ötən gecə Sabunçu dəmir yolu stansiyası yaxınlığında qeydə alınıb. Bakı şəhər sakini Cəlal Qurbanov qısqanclıq zəminində qızı, 30 yaşlı Zərifə Qurbanovanı bıçaqlayaraq qətlə yetirib.**

Hadisəni törədən C. Qurbanov saxlanılıb.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Yəmənin yanan və yaman günü

Səudiyyə Ərəbistanı şiə üsyançılarına qarşı hərbi əməliyyatlara başladı; İran hökuməti qəzəbləndi

**Səudiyyə Ərəbistanı şiə üsyançılarının (husilər) hakimiyyəti ələ keçirdiyi Yəməndə hərbi əməliyyatlara başladığını elan edib. Virtualaz.org saytı "Röyter"ə istinadla xəbər verir ki, bu haqda Səudiyyə Ərəbistanının ABŞ-dakı səfiri Adel əl-Cubey bildirib.**



Adel əl-Cubey

Səfir jurnalistlərə deyib ki, aviazərbələr husi üsyançılarının nəzarətində olan obyektlərə endirilir.

"Yəmən xalqını və onun qanuni hakimiyyətini müdafiə etmək üçün bütün zəruri addımlar atılacaq... Yəmənin çökməsi bizim üçün variant deyil" deyə, səfir bildirib.

Əməliyyat qurudan da başlaya bilər. Belə ki, Səudiyyə Ərəbistanı Yəmənlə sərhədə iri qoşun qruplaşmaları cəmləşdirib. Səfirin sözlərinə görə, Yəməndə əməliyyat hansısa şəhərlə və regionla məhdudlaşmayacaq.

Bu bomba zərbələrindən sonra Yəmən prezidenti ölkədən qaçmalı olub. Həmçinin şahidlər bildirir ki, Yəmən paytaxtında bomba partlayışları ara vermir. Gecə bombardmanlarında onlarla adamın öldüyü təxmin edilir.

Səudiyyə Ərəbistanı səfiri onu da deyib ki, Yəməndəki əməliyyatlarda başqa region ölkələrinin iştirakı da gözlənilir. Məlumatlara görə, əməliyyatda 10-a qədər ölkə, o cümlədən Fars körfəzi ölkələri iştirak edəcək. Küveyt, Bəhreyn və Qətər artıq Yəmənin "husi işğalçılarından" müdafiəsini dəstəkləyəcəklərini elan ediblər.

Martın 26-na keçən gecə Yəmən ordusunun husilərin tərəfinə keçən hissəsi paytaxtda beynəlxalq aeroportu və Ədən dəniz limanını ələ keçiriblər.

Qeyd edək ki, Yəməndə "ərəb baharı"ndan sonra bu ölkə Səudiyyə Ərəbistanı, "əl-Qaidə" və İran arasında rəqabət meydanına çevrilib. İranın dəstəklədiyi və şiəliyin zeyditlər sektasına aid olan husilər son aylar xeyli güclənərək Səudiyyə Ərəbistanı və digər sünni monarxiyalarının dəstəklədiyi prezident Hadiyə qarşı üsyana qalxıblar.

Səudiyyə Ərəbistanı ehtiyat edir ki, husilərin Yəməndə hakimiyyəti ələ alması ölkənin Yəmənlə sərhəd və neft yataqlarının yerləşdiyi şiə bölgələrində də üsyana səbəb ola bilər.

Bu münaqişədə Yəmənin 2011-ci ildə devrilmiş prezidenti Əli Abdulla Saleh də husi üsyançılarını dəstəklədiyi haqda xəbərlər var. Son məlumatlara görə, Saleh Səudiyyə Ərəbistanının bombardmanlara başlamasından sonra Sənadakı iqamətgahını tərk edib. Husilər isə bombardmanlara cavab olaraq tammiqyaslı müharibə ilə hədələyiblər.

İran hökuməti isə Yəməndə aparılan hərbi əməliyyatların dərhal dayandırılmasını tələb edib.

## ABŞ-İran danışıqlarının yeni raundu başladı

**ABŞ-la rəsmi Tehran arasında İranın nüvə proqramına dair danışıqların yeni raundu başlayıb. Bu məqsədlə ABŞ dövlət katibi Son Kerri ilə İranın xarici işlər naziri Savad Zərif İsveçrədə bir araya gəlib.**

Nüvə razılaşması ilə bağlı «Altılıq»ın nümayəndələri martın 31-dək ortaya bütün tərəfləri qane edən, həmçinin İranı sanksiyalardan azad etməyə yönələn müddəalar qoymalıdırlar. Razılaşma imzalansa, tərəflərə texniki detalları müzakirə etmək üçün iyun ayına qədər vaxt veriləcək.

Xatırladaq ki, təşəbbüs ortaya atılandan (2013-cü il) bəri tərəflər iki dəfə danışıqların yekun mərhələsini təxirə salıblar.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## Dubay şahzadəsi Hacıqabulda ova başlayıb

**Dubay şeyxi Məhəmməd bin Rəşid əl-Məktumun 19 övladından biri - Dubay şahzadəsi Həmdan bin Məhəmməd bin Rəşid martın 23-dən Azərbaycanda səfərdədir. Əshabələri ilə Bakının görməli yerlərini gəzən şeyx martın 24-də paytaxtdan Hacıqabul rayonuna ova gedib.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, ərəb zənginləri Hacıqabulun Qarasu və Muğan kəndlərində şahin və bəzgək quşları ovlayırlar. Daha dəqiq desək, onlar bu gündən ova çıxacaqlar. Hacıqabuldakı mənbələrdən əldə etdiyimiz məlumata görə, ov hazırlıqları artıq başa çatıb.

Qeyd edək ki, düzənlikdə alıcı quşlarla ov etmək ərəb zənginlərinin ən sevimli məşğuliyyətindən biridir. Onların heç bir dərə-təpənin olmadığı Hacıqabul zonasının çöllüklərini seçməsi də bununla bağlıdır. Bu yerlər ərəblərə ənənəvi səhralıqdakı ovdanları xatırladır. Üstəlik, ərəblər ova maşınlarla çıxmağı sevirlər. Hacıqabuldakı çöllük ərazi isə o qədər hamar və hərəkət üçün əlverişlidir ki, ov zamanı avtomobili saatda hətta 100 km sürətlə idarə etmək də çətinlik yaratmır.

Amma son günlər yağmış aramsız yağışlar ərəb zənginlərinin işini bir az çətinləşdirib. Ov ediləcək çöllər palçıqdan keçilməz olub. Ona görə də şahzadə və əshabələri ovu bir günlüyə təxirə salıb. Üstəlik, ovçular bataqlığı xatırladan düzənlikdə çadır qurmağa və gecəni orada qalmağa da tərəddüd ediblər. Buna görə də müvəqqəti olaraq ev kirayələməyə məcbur olublar. Onların bu gündən çöllüyə köçəcəyi deyilir.

Xatırladaq ki, Dubay şahzadəsi Həmdan bin Məhəmməd bin Rəşid boş vaxtlarında "Fazza" ləqəbi ilə şeirlər də yazır. Gənc oğlan 18 milyard dollarlıq var-dövlətə malikdir.

## Türkiyə ən çox sığınacaq tələb edilən üçüncü ölkə oldu

**Birləşmiş Millətlər Təşkilatının məlumatlarına görə, Almaniya və ABŞ-dan sonra ən çox sığınacaq tələb edilən ölkə Türkiyə olub.**

Musavat.com-un məlumatına görə, Suriya və İraqda davam edən qarşıdurmalar, bəzi ölkələrdəki humanitar vəziyyət səbəbindən ötən il sığınacaq tələb edən insan sayı Bosniya müharibəsindən sonra ən yüksək səviyyəyə çatıb. BMT-nin Qaçqınlar Üzrə Ali Komissiyasının 2014-cü il hesabatında yer alan məlumata görə, keçən il 866 min şəxs sığınacaq tələb edib.

Siyahıda 173 min sığınacaq tələbi alan Almaniya birinci, 121 min sığınma tələbi alan ABŞ ikinci olub. Siyahıda üçüncü yeri 87 min 800 tələblə Türkiyə tutub.

## Türkiyə hərbi blok yaradır

**"Ankaranın hədəfi hərbi texnikanın idxalı deyil. Əsas hədəf hərbi texnikanın öz ərazimizdə istehsalı üçün xarici ölkələrlə əməkdaşlığı genişləndirmək, hərbi birlik yaratmaqdır".**

Azvision.az-ın məlumatına görə, bu barədə Türkiyə müdafiə nazirinin müavini İsmayıl Dəmir bildirib.

O, italiyalı həmkarı Djoakkino Alfano ilə görüşdə deyib: "Bizə məhsul satmaq üçün ümidlə gəlməyin. Amma əgər siz Türkiyə ərazisində hərbi texnikanın istehsalı üçün əməkdaşlıq təklif edirsinizsə, biz bunu müzakirə edə bilərik".

İ.Dəmir T-129 döyüş türk vertolyotunun hazırlanması, hərbi təyyarələrin və gəmilərin istehsalı üzrə perspektivli türk-italyan layihələri haqqında iki ölkə arasındakı mövcud əməkdaşlığı yada salıb.

D.Alfano isə vurğulayıb: "Biz sadəcə öz məhsulumuzu satmaq üçün yox, həm də Türkiyəyə yeni texnologiyalar və investisiya gətirmək istəyərdik. Silah idxalı sahəsində İtaliya Türkiyə üçün başqa tərəfdaşlardan daha əlverişlidir".

O, İtaliyanın "Eurosam" konsernin Türkiyənin elan etdiyi raket əleyhinə müdafiə (RƏM) sistemi üçün uzaq məsafəli zenit-raket komplekslərinin alınması ilə bağlı tenderdə iştirakını xatırladıb və ölkəsinin yeni texnologiyaları Türkiyəyə verməyə hazır olduğunu söyləyib.

## Bu gün 19 dərəcə isti olacaq

**Martın 27-də Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Bu barədə APA-ya açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədova deyib.

Mülayim cənub küləyi əsəcəyi, axşam buludların artacağı gözlənilir. Gecə 5-7, gündüz 11-16 dərəcə isti olacaq.

Bölgələrdə hava şəraitinin əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Aran rayonlarında gecə 4-8, gündüz 11-16 dərəcə isti, bəzi yerlərdə 19 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti olacağı ehtimal olunur.

YENİ MÜSAVAT
N 63 (6091) 27 mart 2015

# "Onlar ölkəyə rəhbərlik etsələr, sevmədiklərini küçədəcə öldürərlər"

## Satiraçı - şair özünə qarşı mənəvi terror kampaniyasının aparılmasından şikayət edir: "Mənim iradım o idi ki, xalqın adından yalançı bəyanatlar verməyin"

**Hazırda Belçikada mühacirətdə olan satiraçı-şair Mirzə Sakit sosial şəbəkədəki statuslarında özünə qarşı mənəvi terror kampaniyasının aparılmasından şikayətlənir. Bu terrorun detallarını və müəlliflərini öyrənmək məqsədilə onunla virtual söhbət etdik. Müsahibimizdən öncə problemin hardan və necə qaynaqlandığını soruşduq. O dedi:**


Mirzə Sakit

- Əslində hamımızın bir problemimiz var və o problemlərimizi də hər gün qabardırıq. Həmin problemlərin konkret ünvanlarını çoxsaylı insanlar kimi mən də göstərirəm və hamı kimi bu haqda mən də yazıram. Necə olur ki, başqaları bu haqda yazanda demokratik hesab olunur, amma mən yazanda qan düşür.

Əgər bu problem bir nəfərin şəxsi problemi hesab olunursa heç kim bu haqda bir kəlmə də olsa yazmaz və deyərlər ki, insanın şəxsi işlərinə müdaxilə etmək olmaz...

Mən də öz növbəmdə həmin bu ümumi problemlərimiz haqda yeganə tribunam olan sosial-şəbəkələrdə yazmışam. Məsələnin görünən tərəfi budur ki, bu problemlərin yaranma səbəblərinin mənbəyi bu hakimiyyətdirsə, eyni zamanda müxalifətin də burada öz payı var, vətəndaşların da... Zaman-zaman Əli Kərimlini də, İsa Qəmbəri də haqlı olaraq tənqid etmişəm və bu davamlı da olacaq... *(Hələ Arif Hacılıya "bismillah" etməmişəm).*

Mən də vətəndaş olaraq, öz suç payımı da etiraf edirəm. Cəmiyyətdə yaranmış bütün bu arzuolunmaz halların baiskarları hər birimizik. Bunun daha çox qabarıq hissəsi siyasi fəaliyyətlə məşğul olan insanların payına düşür. Mən də bunları deyəndə nədənsə əyrilərin gözündə çox əcaib görünürəm... Necə ki:

"Bir sözümə düz papağım
yan düşür,
Ay həzərat, mən nə desəm
qan düşür"...

***- Yəni tənqidlərinizi yazandan sonra nələr baş verib, nələr yaşanıb?***

- Mənim tənqidi yazılar yazmağım yeni iş deyil və bunu facebook üzərindən etməmişəm, ilk tənqidi yazılarım bu gün mənimlə dartışan adamların məhz öz qəzetlərinin səhifələrindən başlayıb. O zaman "Eşq olsunlar"ın ağuşunda itib-batırdım, indi də həmin adamların "Lənət olsun" mükafatlarının daim qonağıyam. Məni tanıyanların hər biri gözəl bilirlər ki, mənim üçün tənqid etmə məhdudiyyəti yoxdur; kimi istəsəm tənqid edirəm, hətta dostumu da, qohumumu da, özümü də... Milli Şura yaranmamışdan öncə İctimai Palata deyilən bir qurum var idi, mən də o qurumun üzvü idim və buna baxmayaraq həmin qurumun yararsız olduğunu hər zaman tənqid edirdim. Gördüyünüz kimi də o qurum iflasa uğrayaraq öz yerini başqa bir ölü qurum olan Milli Şuraya verdi. Milli Şuranın da ömrü lap az oldu. Son prezident seçkilərindən dərhal sonra Milli Şura öz ömrünə əlvida deyərək əbədiyyətə qovuşdu. Bu gün Şura adı altında keçirilən mitinqlərin o Şuraya qətiyyən dəxli yoxdu. Onu da deyim ki, həmin Milli Şuranın arxitektoru, hörmətli rejissorumuz cənab Rüstəm İbrahimbəyov zamanında öz missiyasını başa vurub, Şuradakılara İctimai Palata kimi əlvida deyərək çıxıb getdi və sonradan "Gözlə gələcəyəm qurbanın olum" , - desə də, fakt budur ki, gəlmədi. Ona görə gəlmədi ki, bu adam Azərbaycandakı anti-demokratik idarəetmənin köklü şəkildə dəyişməsində qətiyyən maraqlı olan şəxs deyil. Onun bu hakimiyyətdən xırda bir "dost incikliyi" vardı, o incikliyin səbəbindən də Milli Şura doğuldu. Doğulan kimi də yeni doğulan "körpə" ana bətnində olarkən kəllə-beyin travması aldığından, yuxarıda dediyim kimi, dünyasını dəyişdi. Bu bir.

İkincisi, Milli Şuranın ətəyindən yapışıb əlində dəstəvuz edən "Yurd" adlı təşkilat öz acı taleyinin ömrünü bir az da uzatmaq üçün Milli Şura adından yararlanmağa çalışdı. Yeri gəlmişkən, Azərbaycanda AXCP adında partiya yoxdur, bu partiyanın adından spekulyasiya edən insanlar var. AXCP-ni mərhum Əbülfəz Elçibəy özü ilə götürüb apardı. Ona görə apardı ki, o bilirdi onu ən çox söyən, özü də ağır təhqirlərlə söyənlər "Yurd" əcinnə-şəyatinləridi. O da fikirləşdi ki, söyürlərsə heç olmasa məni söysünlər partiyanı yox... "Yurd"çuları tənqid etməyimi heç vaxt gizlətməmişəm, necə ki, bu hakimiyyəti açıq tənqid etdiyim kimi onları da hər zaman açıqca tənqid etmişəm. Gerizəkalı insanlar bəzən mənə deyirlər ki, sən o adamlarla şəxsi ədavət aparırsan. Onların bu ittihamı kökündən yanlışdır, mən şəxsi ədavət aparmıram, onlar mənə yamanlıq edən vaxtlar mən tək deyildim, ailə üzvlərimin sayı yeddi nəfər idi, yeddi nəfər insanın bu cəmiyyətin üzvləri olduğunu nəzərə alsaq, deməli, onlar yeddi nəfər Azərbaycan vətəndaşlarına qarşı çox böyük günah işlədiblər.

***- Mirzə, konkret problemin hansı situasiyadan sonra yenidən alovlandığına qayıda bilərikmi?***

- Bu yaxınlarda rəhmətlik Milli Şuranın funksionerlərindən biri Eldəniz Quliyev cənabları öz facebook səhifəsində mənim haqqımda çox təhqirli məzmunda bir neçə statuslar paylaşdı. Mən də onun öz yazdığı statusları "kopyalayıb" öz səhifəmdə paylaşaraq, insanlara təqdim etdim. Və yazdım ki, baxın, özünü ziyalı adlandıran bir şəxsin yazdığı təhqirlərə fikir verin. Hətta o yazılarında mənim valideynlərimi də təhqir etməkdən çəkinməmişdi. Mənimsə iradım o idi ki, xalqın adından yalançı bəyanatlar verməyin. Çünki Milli Şura bəyan edərək demişdi ki, "Xalq mitinq tələb edir"... Mən demirəm ki, bu xalq bu hakimiyyəti sevir... Mən deyirəm ki, bu xalq bu hakimiyyəti sevmir, amma qorxur. Sənə də inanmır, çünki güvənci yoxdur sənə. Ona görə də xalqın adından yalançı bəyanatlar vermək xalqa qarşı böhtan deməkdir. Bax, mən bunu demişdim. Amma buna görə məni təhqir etmək, özü də bu təhqirlərin məhz özünü "ziyalı" adlandıran bir kəs tərəfindən səslənməsi Milli Şuranın vəfatının ildönümünə təsadüf etdi. Bir də ki, cənab Eldəniz Quliyev orda yazır ki, guya mən Cəmil Həsənlini və Rüstəm İbrahimbəyovu təhqir etmişəm. Bu, tamamilə yalandır. Mən onun məni təhqir etməsindən sonra baxmışam ki, onun yazdığı statusun altında Əli Kərimlinin başdanxarab bir əmisi oğlu var, İnqilab Kərimov. O adamın orda mənə hansı söyüşləri yağdırmasından sonra belə qərara gəldim ki, İnqilab Kərimov "Yurd" təşkilatının üzvü yox, "Əmoğlu partiyası"nın üzvüdür... Ona görə də orda mən İnqilab Kərimovun, Eldəniz Quliyevin, Əli Kərimlinin adını çəkmişəm... Ən acınacaqlısı isə o idi ki, Eldəniz Quliyevin məni söyüşlərə qərq etdiyi statusu "Yurd" təşkilatının rəhbərlərindən Gözəl Bayramlı, Fuad Qəhrəmanlı və o biri funksionerləri də sevincək "layk" etmişdilər. Amma birinin də vicdanı çatıb orda yazmamışdılar ki, adamı təhqir edirsinizsə də, valideynləri ilə nə işiniz var...

***- Adını çəkdiyiniz şəxslərdən başqa sizinlə ədavət aparan başqa kimlər var?***

- Bundan başqa hazırda Hollandiyada yaşayan dostum Fikrət Hüseynli lap "gül vurdu". Deməli, Fikrət bəy Eldəniz Quliyevi önləməyi bacardı. O məni təhqir etmə yarışının qalibi oldu. Yenə də Gözəl Bayramlı, Fuad və onların əcinnə-şəyatin dəstələri Fikrət bəyin statusunun altına qondular. Eybi yox, təhqir etsinlər. Bu təhqirlər və yamanlamalarla məni susdurmaq fikrindədirlərsə, yazıq adamlardılar. Mənə qəribə gələn o oldu ki, axı bu Fikrət bəy özü bir neçə il bundan öncə Avropa şəhərlərinin birində gecə vaxtı küçədə dəli kimi öz-özünə "Ay Əli Kərimli heeeeyyyy..." *(bu hissə qeyri-etik olduğundan, ifadələri yazmırıq - S.T.)* deyəndə və mən ona irad bildirib deyəndə ki, ay qardaş adamın özünü söyürsənsə dədəsi ilə nə işin var axı. O da "məhz elə onun dədəsi söyülməlidi ki, belə bir "mrazı" əkib başımıza bəla edib", deməsi idi... Bundan başqa, təxminən üç ay öncə Fikrət bəy Cəmil Həsənlini kukla və Milli Şuranı da kukla teatrı adlandırıb, indi də kimlərəsə xoş gəlmək üçün yazdığı o statusu görəndən sonra bir daha "Yurd" virusunun insanlar üçün necə qorxulu bir xəstəlik olduğuna əmin oldum...

***- Bunun arxasında AXCP rəhbərliyinin ola biləcəyinimi düşünürsüz?***

- Özünüz əmin olmaq üçün dediyim adamların facebook səhifələrindəki təhqirli statusları izləsəniz həmin "laykovşikləri"n "Yurd" rəhbərliyi olduğunu əyani şəkildə görə bilərsiniz.

Bu rəhbərlik bu ağılla, bu təfəkkürləmi ölkəyə rəhbərlik etmək iddiasındadır? Bu adamları yaxından tanıdığıma görə sizi əmin edib bildirirəm ki, bu əcinnələr çox yox, ikicə həftəlik ölkəyə rəhbərlik etsələr, xoşlarına gəlməyən adamları qətiyyən həbsxanalara atmazlar. Ona görə ki, sevmədiklərini küçədəcə təpikləyib öldürərlər, həbsxanaya da ehtiyac olmaz.

Tanrımdan isə bir təvəqqem var: "Dəvəyə qanad, "Yurd" əcinnələrinə hakimiyyət, Mirzəyə də qələmsizliyi qismət etməsin ". Amin...

***P.S.*** *Yazıda adları çəkilən hər bir kəsi dinləməyə və onların da mövqelərini dərc etməyə hazırıq.*

❑ **Sevinc TELMANQIZI**



# Əfv ümidləri may ayına qaldı

## **Gülağa Aslanlı:** "İqtidar-müxalifət dialoqunun yarandığı görüntüsünün sonu oldu"
## **Mirvari Qəhrəmanlı:** "Əfv həmişə ölkə üçün imicdir"

**Məlum olduğu kimi, prezident İlham Əliyev martın 18-də Novruz bayramı ilə əlaqədar əfv sərəncamı imzaladı. 101 məhbusa şamil olunan sərəncamla tanınmışlardan Bəşir Süleymanlı (Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) icraçı direktoru), ilahiyyatçı Anar Qasımlı, 2012-ci ildə Təhsil Nazirliyinin qarşısında "Hicaba azadlıq" adı ilə keçirilən aksiyada tutulan Ramil Vəliyev və "NİDA" Vətəndaş Hərəkatının üzvü Orxan Əyyubzadə azadlığa buraxıldı.**

Qarşıdan Avropa Oyunlarının gəldiyini nəzərə alsaq, siyasi məhbusların əksəriyyətinin həbsdə qalması hakimiyyətə yenidən başağrısı gətirəcək. Bəzi ekspertlər hesab edirlər ki, yarışlar öncəsi Azərbaycan iqtidarı məhbus problemini həll etməlidir. Bu baxımdan may ayına olan ümidlər yüksəkdir.

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı əfv sərəncamını belə dəyərləndirdi:** "Əfvə Müsavatın verdiyi etiraz bəyanatında qeyd edildiyi kimi, siyasi məhbus problemini həll etmədi. Eyni zamanda bu əfv Azərbaycanda guya iqtidar-müxalifət dialoqunun yarandığı görüntüsünün də sonu oldu. Hakimiyyət bununla müxalifətlə heç bir dialoqa getmədiyini təsdiqlədi. Partiyamızdan siyasi məhbus olanların sayı getdikcə artmaqdadır. Bu əfvlə 2-3 nəfər azad oluna bilərdisə, onların heç biri həbsdən buraxılmadı. Müsavat bundan əvvəlki Məclis iclaslarında başqan müavinləri azad olunmazsa, o zaman Avropa Oyunlarının boykot olunması ilə bağlı iştirakçı dövlətlərə müraciətlərin ediləcəyi məsələsini gündəmə gətirib. Yəqin ki, partiyamızın aprelin 4-nə təyin olunmuş Məclisində bu barədə qərar qəbul ediləcək. Ondan sonra son qərarımızı verəcəyik".

**Gülağa Aslanlı may ayında əfv sərəncamının veriləcəyi barədə yayılan xəbərlərə də aydınlıq gətirdi:** "Azərbaycan hakimiyyətindən nəsə gözləmək düzgün deyil. Çünki etdikləri hərəkətlərin heç biri ölkə daxilində və beynəlxalq aləmdə yaranan situasiyaya adekvat deyil. İndidən may əfvi ilə bağlı bir fikir söyləmək mümkün deyil".

Əfvlə bağlı əsas fəaliyyət göstərən qurumlardan biri İnsan Haqları üzrə Birgə İşçi Qrupudur. Təsadüfi deyil ki, qurumun Yeni ildə Əfv Komissiyasına təqdim etdiyi siyahından 10, son əfvdə isə 4 nəfər azadlığa buraxılıb.

**İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı fəaliyyətlərini davam etdirəcəklərini bildirdi:** "Əfvə düşənlər də bu ölkənin vətəndaşıdırlar. Çoxlu sayda ailə şad olub. İşçi Qrupu öz fəaliyyətini davam etdirəcək. Əfv həmişə ölkə üçün imicdir".

❑ **Cavanşir ABBASLI**

**“Lamiyə işi”ndə əsas fiqurant, Şəmkirin sabiq icra başçısı, sonradan kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovun Şəmkirdəki məşhur stadionu ilə bağlı yeni məlumatlar almışıq. Vaxtilə “Aşıq Teymur” sovxozuna məxsus olan stadiona A.Aslanov Şəmkirin icra başçısı olarkən sahib çıxıb. 3 il ardıcıl respublika çempionu olan “Şəmkir” futbol klubu da məhz həmin stadionda uzun illər məşq edib.**

# Aslan Aslanovun Şəmkir stadionunu əldən verməsinin sirri

## Sabiq icra başçısı stadionu vaxtilə aldatdığı adamlara veribmiş


Aslan Aslanov

A.Aslanov Şəmkirdən Bakıya vəzifəyə gətiriləndən sonra isə stadionun qapısı bağlı qalıb. Maraqlıdır ki, A.Aslanov 2000-ci ilin əvvəllərindən istifadəsiz qalan stadionu satmaqdan da vaz keçib. Şəmkirdəki alman kilsəsindən arqanı belə satmağı özünə rəva bilən bir məmurun stadiona münasibətdə iştahının illər uzunu saxlamasının səbəbi nə olub?

**Qaynağımız deyir ki, Əliağa Hüseynov Respublikanın Hərbi Komissarı vəzifəsindən azad ediləndən sonra Səfər Əbiyev komissarlıq sistemini faktiki olaraq Aslan Aslanovun idarəçiliyinə veribmiş:** “Aslan Aslanov 2 il müddətində hərbi komissarlıqların 4-cü, 2-ci şöbələri, hərbi polis və hərbi hospitalları idarə edirdi. Rəisləri çıxarıb yerinə istədiyi adamları təyin etdirirdi. Buna görə Nəcməddin Sadıqovla həmişə davaları da düşürdü. Aslan Aslanov hərbi komissarlıqları idarə etdiyi zamanlarda o vaxt Şəmkirin hərbi komissarı olan Həsrət İsmayılovdan borc adı ilə xeyli pul almışdı. O pulu da geri qaytarmayıb Bakıda vəzifəyə təyin etdirəcəyini vəd edirdi. Sonradan Aslan Aslanov vədini tutmadı, Həsrət İsmayılovun pulunu da qaytarmadı. Ən maraqlısı da bundan sonra oldu. Aslan Aslanov Şəmkirdəki stadionu bu məsələdən illər əvvəl, hələ Şəmkirin icra başçısı olarkən Həsrət İsmayılovun qardaşı, Rusiyada bizneslə məşğul olan Dilqəmin adına rəsmiləşdirmişdi. Aslan Aslanov Həsrət İsmayılovu vəzifəyə təyin etməyəndə aralarında narazılıq yaranmışdı. Aslan Aslanov Həsrət İsmayılovu sakitləşdirmək üçün onu qardaşı Dilqəm İsmayılovu Cırdaxan kəndinə bələdiyyə sədri təyin etdirdi. Amma yenə də Həsrət İsmayılovun pulunu qaytarmadı, ona verdiyi vədi də tutmadı. O da stadionu geri qaytarmaqdan imtina etdi. İllərlə həmin stadion da bağlı qaldı”.

Yada salaq ki, bu ilin fevralında Şəmkirdə olduğumuz zaman stadionun söküldüyünün şahidi olmuşduq. Həmin vaxt öyrənmişdik ki, stadion sökülməzdən əvvəl faktiki sahibi Aslan Aslanova müəyyən bir məbləğ təklif olunub, lakin o, pulun azlığını əsas gətirərək məbləğlə razılaşmayıb. Sakinlər A.Aslanova 3 milyon manat təklif edildiyini, o isə daha artıq - 10-15 milyon manat istədiyini demişdilər. Bununla da A.Aslanovla sövdələşmə bitdiyini də öyrənmişdik. Aldığımız son məlumatda sövdələşmənin stadionun sahibinin dəyişdirilməsi ilə bağlı prosesin İsmayılovlarla aparıldığı və baş tutduğu da vurğulanır.

❑ **E.HÜSEYNOV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Donuz qripi dünyanı sürətlə bürüyür

## Türkiyədə can alır, Azərbaycana da keçə bilərmi?




**Türkiyədə bu günə kimi 33 nəfər H1N1 virusundan (donuz qripi) dünyasını dəyişib. Bunu ölkənin səhiyyə naziri Mehmet Müezzinoğlu yerli mediaya müsahibəsində deyib. Lakin onun sözlərinə görə, insan tələfatı olsa da, qorxulu epidemiya yoxdur.**

Müezzinoğlu qeyd edib ki, H1N1 virusu diaqnozu qoyularaq ölənlərin 60 faizi ağciyər xəstəliyindən, eləcə də digər xroniki xəstəliklərdən əziyyət çəkənlər olub: “Onların yarısı da 65 yaşdan yuxarı olan xəstələr, səhhətində heç bir problem olmadan və sırf bu virusdan ölən 18 nəfər isə 20-25 yaş arasındakı gənclər olub”.

İnfeksiya xəstəlikləri və klinik mikrobiologiya mütəxəssisi Paşa Göktaş bildirib ki, ölkədə donuz qripi epidemiya halında olmasa da, getdikcə artır. O, vəziyyətin nəzarətdə olduğunu da vurğulayıb.

Donuz qripi ilk dəfə 1931-ci ildə aşkar edilmiş təhlükəli tənəffüs yolu xəstəliyidir. İlk dəfə bu xəstəliyi Amerika alimi Riçard Şoup aşkar edib. Sinfinə görə donuz qripinin ən geniş yayılmış növü olan A tipli virusa aiddir. Virus hava-damcı yoluyla yayılır. Simptomları yüksək hərarət, kəskin öskürək, yanğı, boğazda ağrı, zökəm, baş və əzələ ağrıları, bəzi hallarda qusma və ishaldır.

Donuz qripi virusu insanlarda qrip yaradan virusdan fərqlənir. Donuzlarda olan bu virusa donuzla yaxın kontaktda olan insanlar da yoluxa bilər, amma bu, çox az hallarda baş verir. Əvvəllər də donuz qripi epidemiyası qeydə alınıb. Bunlardan ən böyüyü 1976-cı ildə Amerika ordusunda baş verən epidemiyadır. Hazırda Meksikada aşkar edilən virus yeni tipli virusdur və əvvəllər nə insanlarda, nə də donuzlarda qeydə alınıb.

BMT, Ümumdünya Səhiyyə Təşkilatı və əksər ölkələrin müvafiq qurumları A\H1N1 virusuna qarşı mümkün tədbirlərin görülməsinə baxmayaraq, ona yoluxan insanların və ölənlərin sayı durmadan artır. ABŞ-ın Epidemiyadan Müdafiə Bürosu rəsmi olaraq təsdiq edib ki, bu virusun insandan insana yoluxma xüsusiyyəti mövcuddur. Lakin prosesin nə dərəcədə yüngül baş verməsini və buna görə də epidemiya təhlükəsinin nə qədər böyük olması hələ öyrənilir. Məlumatlar yeni yoluxma halları ilə tutuşdurulur və daim yenilənir.

Bu qrip yüksək patogen virus ştamının törətdiyi kəskin infeksion xəstəlikdir. Virus çox asanlıqla insandan-insana hava-damcı yolu ilə keçir və bir neçə saatdan 7 günə qədər olan müddətdə özünü göstərir. Uşaqlar, xüsusən də azyaşlı uşaqlar daha uzun müddət ərzində potensial yoluxdurucu ola bilər.

Donuz qripinə yoluxma müxtəlif yollarla baş verir. Xəstəlik ilk növbədə artıq donuz qripinə tutulan xəstə adamla yaxın ünsiyyət vaxtı, öskürək və asqırma zamanı ağız seliyi zərrəciklərinin havadan digərinin nəfəs yoluna düşməsi nəticəsində yayılır. Xəstə donuzların olduğu fermalardakı insanlar da xəstəliyə yoluxmaq təhlükəsi ilə üzləşirlər.

Bu virus tutulduğu təsdiqlənmiş şəxslər xəstəxanaya yerləşdirilmədiyi hallarda və ya xəstələnmə şübhəsi olan şəxslər ev şəraitində, ən azı xəstəliyin başlandığı ilk 7 gün ərzində təcrid edilməlidir. Bu zaman həkimlər adi qrip epidemiyası zaman verdikləri məsləhətləri təkrar edirlər: əlləri sabunla əsaslı şəkildə yumaq, xəstə adamlarla yaxın kontaktdan çəkinmək və nəfəs yollarını təzifflə bağlamaq lazımdır. Birdəfəlik burun dəsmallarından istifadə etmək və burunu siləndən sonra onu dərhal atmaq lazımdır. Tərkibində spirt olan məhlullar da yaxşı dezinfeksiya edir.

Xəstəliyin ilkin əlamətləri müşahidə edildikdə təcili evə həkim çağırmaq, çoxlu miqdarda maye qəbul etmək, maska və ya pambıq tənzifli maska taxmaq, əlləri tez-tez sabunla yumaq lazımdır. Ailədə xəstə şəxslə təmas zamanı gigiyena qaydalarına əməl edilməlidir. Profilaktiki tədbirlər kimi kəskin respirator xəstəlikləri (hərarət, öskürək, zökəm) və qripin digər əlamətləri olan şəxslərlə yaxın əlaqədən mütləq qorunmaq lazımdır. Mütləq evdə qalmaq, işə və ya təhsil müəssisəsinə getməkdən, kütlə ilə təmasdan çəkinmək, insanlarla təmasa girməmək üçün ailə üzvlərinə və yaxınlara xəstəliklə bağlı məlumat vermək lazımdır. Həmçinin gözlərə, buruna və ağıza toxunmamağa çalışmaq, sağlam həyat tərzi keçirmək, o cümlədən normal yuxuya riayət etmək; vitaminlərlə zəngin qida qəbul etmək, fiziki aktivliyi artırmaq, xəstələnərkən evdə qalmaq və tibbi xidmətə müraciət etmək vacibdir.

❑ **Sevinc TELMANQIZI**

# Arabir geriyə də baxmaq lazımdır...



**Hüseynbala SƏLİMOV**

**Təşkinlik də elə ümid kimidir. O da yaşamağa kömək edir. Xüsusən də bir ölkədə baş verənlərin başqa ölkədə də olduğunu biləndə adam azacıq da olsa sakitləşir və düşünür ki, o və onun ölkəsi heç də əlahiddə deyil, oxşar problemlərlə başqaları da qarşılaşırlar...**

Biz bir çox neqativ tendensiyaların Azərbaycana Rusiyadan başlanğıc almasına bir növ alışmışıq - orada siyasi texnoloqların mövcud siyasi sistemi bir az da sərtləşdirmək üçün tətbiq etdikləri “siyasi reseptlər” çox keçmir ki, Azərbaycanda da təzahür edir...

Amma bugünlərdə eşitdik ki, məşhur CNN telekanalı Rusiyada lisenziya almağa müvəffəq olub. Bu xəbər bizi doğrusu, azacıq çaşdırdı, çünki xarici kanallara və beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən yerli QHT-lərə qarşı təpkilər artıq qeyd etdiyimiz kimi, ilk olaraq Rusiyada başlamışdı...

Amma indi məlum olur ki, qonşu ölkənin hökuməti hələ ki ölkəni tamam qapamaqdan uzaqdır. Belə vəziyyət Rusiyadakı siyasi texnologiyaları “kopiyalamağa” alışmış Azərbaycanda hansı səbəbdən nəzərə alınmayıb, bu, bizə bir qədər aydın olmadı...

Əslində sərt avtoritar və bir az da kriminal mahiyyətli siyasi sistemlərdə nə baş verirsə, həmin siyasi sistemin məntiqinə uyğun baş verir. Bu məntiqi isə bəlkə də hər şeydən çox məşhur bir lətifə özündə ehtiva edir...

Qərəz, meşədə heyvanlar görür ki, dovşan hövlanak harasa qaçır. Soruşurlar ki, ay dovşan, nə olub, hara belə qaçırsan? Dovşan deyir ki, bəs meşəyə “komissiya” gəlib, kimin dörd qulağı var, tutub kəsirlər! Heyvanlar qayıdır ki, dovşan, sən nədən qorxursan, sənin ki, iki qulağın var? Cavabında dovşan nə desə yaxşıdır? Dovşan deyir ki, qulaqları əvvəl kəsir, sonra isə sayırlar...

İndi bir çox siyasi sistemlərin məntiqi buna oxşayır - əvvəl adamı həbs edir, daha sonra isə ona iş “tikirlər”. Bəzən bu iş “tikmə” prosesi aylarla çəkir və bu müddət ərzində prosesin ilkin gedişi ilə bağlı bəzən hətta biri-birinə zidd informasiyalar belə səsləndirirlər...

Ona görə də adam uzun müddət məlumatsızlıqda qalır. Bilmirsən ki, nə baş verir, ölkənin və onun siyasətinin səmti haradır? Bəzən deyirlər ki, qaradan da tünd rəng olmaz... Prinsipcə, avtoritar sistemin çərçivələri bəllidir - kiçik iqtisadi azadlıqlar və total nəzarət altında olan siyasi həyat. Ona görə də bəlkə də hər şey siyasət üzərində total nəzarətə doğru gedir...

Bunun limiti, son həddi isə bilinmir. Hər dəfə total nəzarətə doğru bir addım da atılanda hamımız heyrət içində qayıdırıq ki, yəni bu da mümkündür? Amma mümkün ola bilər. Xüsusən də hakimiyyətin nəzarət şəbəkəsi özünün genişlənmə prosesində hansısa daxili və xarici manevə rast gəlmirsə...

Azərbaycanın və onun kimi ölkələrin problemi nədədir? Problem ondadır ki, ölkədə güclü cəmiyyət yoxdur. Azərbaycan cəmiyyəti güclü ola bilmədi, hamı güclü cəmiyyət əvəzinə güclü lideri və güclü hakimiyyəti seçdi...

Ona görə də təəccüblənməyə dəyməz. Məsəl var ki, bütün hakimiyyətlər korlanmağa meyllidir, nəzarətsiz hakimiyyət isə korlanmaya bilmir. İndi hamı özündən və başqalarından soruşur ki, görən, hökumət filan işi niyə belə etdi?

Amma heç kim bir sualı özünə vermir: hökumətin filan işi filan cür etməməsi üçün sən nə etdin?..

Heç kim heç nə etmək istəmir. Hamı düşünür ki, hakimiyyət nə etmək lazım olduğunu bilir. Onda təəccüblənmək də lazım deyil- hakimiyyət məhz özünün bildiyini və istədiyini edir...

Azərbaycan bir tərəfə, deyəndə ki, Rusiyada da güclü cəmiyyət yoxdur, dərhal qayıdırlar ki, o boyda Rusiyada güclü cəmiyyət yoxdur? Məsələ də ondadır ki, yoxdur. Olsaydı müxalifət Boris Nemtsovun qətlini ölkədəki siyasi atmosferə qarşı etiraz aksiyasına çevirə bilərdi...

Amma bacarmadılar. Ya da etmək istəmədilər. Bir-iki il əvvəl Rusiya siyasətində yeni bir fiqur göründü- Aleksey Navalnıy. Bu adam hələ də üzücü məhkəmə proseslərindən canını qurtara bilmir...

Sonra da deyirlər ki, nə Rusiyada, nə də coğrafi və siyasi məzmun baxımından ona yaxın olan ölkələrdə hakimiyyətin siyasi opponentləri təqib olunmur. Amma bu, tamam yanlışdır- bu hakimiyyətlər ən kiçik opponentlik cəhdlərini belə cavabsız qoymurlar...

Amma arabir geriyə və bir azacıq da irəli baxmaq lazımdır. Geriyə baxsaq ilk növbədə itirilmiş şansları, irəliyə baxsaq isə siyasi dalan görərik...

Xüsusən də nəzərə almaq lazımdır ki, bəzən gələcəyin suallarının cavabı keçmişdə olur və bu cavabları tapmağın bir resepti var: keçmişdən kül yox, od götürmək lazımdır...

**Martın 21-də Gürcüstanın Azadlıq meydanında eks-prezident Mixail Saakaşvilinin tərəfdarları etiraz aksiyası keçirib. 40 minə yaxın insanın iştirak etdiyi mitinqdə hökumətin istefası tələb olunub. Monitor vasitəsilə mitinqdə çıxış edən Saakaşvili xalqı Gürcüstan hökumətini yola salmağa çağırıb. Məlumdur ki, hər bir ölkədə baş verən proseslər qonşu dövlətlərə dolayısı yolla təsir edir. Ekspertlər bildirir ki, qarşıdan parlament seçkiləri də gəlir, bu baxımdan qonşu Gürcüstanda baş verənlərin Azərbaycana təsirinin olacağı istisna deyil...**
**Gürcüstanda keçirilən mitinqlər zamanı qonşu dövlətdə səfərdə olan Müsavat rəhbərlərindən biri, başqan müavini Elman Fəttah partiyanın yaxın günlərdə kütləvi aksiyalara start verəcəyini bildirdi: "Müsavat aksiya ilə bağlı qərarını verib. Martın 18-də Mitinq Komitəsi formalaşdırılıb. Aksiyaya hazırlıq prosesi davam edir. İş bölgüləri aparılıb.**



# Gürcüstandakı aksiyaların Azərbaycana təsiri...

## Aprel ayında Bakıda mitinqlər planlaşdırılıb; İqbal Ağazadə isə aksiyaların əleyhinədir

Aprel ayı ərzində Müsavat Partiyası qarşıdan gələn seçkilər, ölkədə baş verən proseslər və manatın ucuzlaşması ilə bağlı mitinq keçirməyi planlaşdırır. Gürcüstandakı aksiya xüsusi bir hadisə ilə bağlı olmayan etirazdır. Orada iki ildən sonra seçkilər olacaq. Azərbaycanla müqayisədə iqtisadi cəhətdən bir ciddi hadisə də baş verməyib. Saakaşvili hazırda müxalifətdə olduğuna görə gücünü yoxlamaq üçün mitinq keçirib. Biz bu barədə görüşlərimizdə məlumat aldıq. Gürcüstan demokratik bir ölkədir. Bunun göstəricisidir ki, şəhərin mərkəzində müxalifət istədiyi şəkildə mitinqini keçirir".

**Elman Fəttah Gürcüstandakı aksiyanın kütləviliyindən və Azərbaycanda vətəndaşların müxalifətin çağırışlarına qoşulmamasına dair sualımıza belə cavab verdi:** "Tamam fərqli məsələlərdir. Çünki Gürcüstanda müxalifətə qarşı hər hansı bir təzyiq kampaniyası aparılmır. Orada, ümumiyyətlə, siyasi məhbus yoxdur, gənc fəallar həbs edilmir. Tam azad və demokratik bir ölkədir. Bizdə isə 100-dən çox siyasi və vicdan məhbusu var. Müsavat başqanının üç müavini həbsdədir. Digər təşkilatların nümayəndələri ağır ittihamlarla həbsə atılıblar. Sərbəst toplaşmaq azadlığı tam təmin olunmur. "Məhsul" stadionu ilə Gürcüstandakı meydanı da müqayisə etmək olmaz. Çünki bizdə mitinqə gələnlər xüsusi yoxlamadan keçirilir. İşdən qovulma kimi hədə-qorxular olur. Bu da insanlarda xof yaradır. Nəticədə kütləviliyə nail ola bilmirik. Bunların heç biri Gürcüstanda olmur. Əsas fərqlər bunlardır".


İqbal Ağazadə

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə tamam fərqli düşünür. O, kütləvi aksiyaların əleyhinədir:** "Hesab etmirəm ki, bu gün Azərbaycanda vəziyyəti dəyişmək mümkündür. Seçici, vətəndaş və üzvlərimizlə elə işləmək lazımdır ki, o mexanizm kütləviliyi təmin edə bilsin. Zərurət yaranarsa, o zaman kütləvi aksiyalara və meydanlara çıxmaq olar. 1500-2000 mitinq iştirakçısı ilə proses aparmaq olmaz. Biz görürük ki, yüksək xətlə gedən 3-4 mitinqdən sonra eniş dövrü başlayır. Hədəflər nədir? Konkret bunu müəyyənləşdirən müxalif qüvvələr yoxdur. Xalqın müxalifətdən gözləntiləri tükənib. Bu situasiyanı dəyişməliyik. Bunun üçün maariflənmə lazımdır. Hazırda Azərbaycanda müxalifətin Gürcüstandakı kimi, kütləviliyə nail olacağı fikrini söyləmək yanlış olar. Kim özünü aldatmaq istəyirsə, bu tamam başqa məsələdir. Mən üzvlərimi aldatmaq niyyətində deyiləm. Hesab edirəm ki, bu gün o mərhələ deyil".

❑ **Cavanşir ABBASLI**

## Tiflisdə Saakaşvili tərəfdarları hökumətin istefasını tələb edir

**Martın 26-da Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin jurnalistlərlə "Holiday İnn" hotelində keçirdiyi görüş zamanı binanın qarşısında bir qrup gənc tərəfindən etiraz aksiyası keçirilib.**

APA-nın məlumatına görə, aksiya sabiq prezident Mixail Saakaşvilinin tərəfdarları olan "Azad Zona" təşkilatının üzvləri tərəfindən təşkil edilib.

İştirakçılar hökumətin istefasını tələb edən şüarlarla çıxış ediblər. Aksiya iştirakçıları "Bidzina get!", "Hakimiyyət istefaya!", "Larinin kupona çevrilməsini dayandırın!" şüarları səsləndirib və plakatlar qaldırıblar.

Etiraz aksiyasının iştirakçılarının mehmanxanaya daxil olmaması üçün polis tərəfindən sədd qurulub. Aksiya insidentsiz başa çatıb.



# Müdafiə nazirinin müharibə bəyanatlarına reaksiyalar gəldi

**Xəbər verildiyi kimi, Novruz bayramı ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhəboyu rayonlarda yerləşən hərbi hissələrdə olub. Nazir səngərlərdə əsgərlərlə görüşərkən iki mühüm bəyanat verib. Z.Həsənov "ilk zərbədə düşmənin 70 faizini məhv edəcəyik" deyib, əsgərlərlə çörək kəsərək "yaxın vaxtlarda bir yerdə vuruşacağıq" söyləyib.**

Nazirin bəyanatlarına Azərbaycan Milli Strateji Tədqiqatlar Mərkəzinin rəhbəri Natiq Miri və Qarabağ qazisi Rey Kərimoğlunun münasibətini öyrəndik.

**N.Miri deyir ki, erməni ordusu dağılmaq üzrədir, mənəvi-psixoloji deqradasiya içindədir. Düşmən ordusunda əsgərlərin əhval-ruhiyyəsi sıfır səviyyəsindədir. Bu məqamda nazirin açıqlaması gözlənilən və yerində olub:** "Nazirin açıqlaması Azərbaycan əsgərinə psixoloji üstünlük vəd edir, ruh yüksəkliyini artırır. Ordumuzun təchizatı, müasir silahlarla təmin edilməsi, düşməndən qat-qat güclü bir vəziyyətə gətirilməsi də psixoloji üstünlüyü Azərbaycan tərəfinə edir. Düşünürəm ki, lokal hərbi əməliyyatlar nəticəsində bir neçə həftəyə Azərbaycan özünün rayonlarını işğaldan azad edə bilər".

**N.Miri hesab edir ki, nazirin açıqlaması regionda baş verən geosiyasi vəziyyətə uyğundur:** "Regionda ABŞ, Avropa və Rusiya qarşıdurması var, Ukraynada böyük bir savaş gedir. Rusiya getdikcə daha çox itirir və aqressivliyi də artır. İtirdiklərini pərdələmək üçün Rusiya regionda manevrlər etməyi düşünür. İtirilən Ukraynanı Cənubi Qafqazın strateji ölkəsi ilə kompensasiya etmək istəyini açıq büruzə verir. Fikrimcə, bu, asan məsələ olmayacaq. Azərbaycana konkret nələrsə verilməsə, Azərbaycandan nələri isə almaq çox çətin olacaq. Üstəlik, üfüqdə Rusiya, Türkiyə və Azərbaycan yaxınlaşması var. Nəzərə almaq lazımdır ki, hər an regionda ictimai-siyasi, hərbi vəziyyət dəyişə bilər və Azərbaycan yaranmış vəziyyətdən istifadə edərək işğal olunmuş torpaqlarını azad edə bilər".



### Natiq Miri: "Baş verənlər yeni bir siyasətin təzahürləridir"



### Rey Kərimoğlu: "Zakir Həsənovun bəyanatının real əsasları var"

**N.Miri bildirdi ki, Azərbaycan işğal edilmiş torpaqlarını hərb yolu ilə azad etmək üçün qısa zamanda çox böyük işlər görüb:** "Bu yöndə çox ciddi hazırlıqlar görülüb. Azərbaycan ordusu düşməni işğal edilmiş torpaqlardan təmizləmək iqtidarındadır. Nazirin son açıqlaması təkcə Azərbaycan cəmiyyətinə deyil, həm də Ermənistan auditoriyasına hesablanıb. Bu gün Ermənistanda mərkəzdənqaçma prosesi gedir. Düşmən ordusunda endirilən zərbələr, ardıcıl verilən tutarlı cavablar erməni əsgərləri qaçaraq canlarını qurtarmağa sövq edir. Artıq erməni əsgərlər onları cinayətə sürükləyən məsuliyyətsiz rəhbərlərinin əsassız tənbehlərinə tuş gəlməmək üçün silahı atıb ağ bayraqla bizim tərəfimizə keçirlər. Bu çox ciddi prosesin başlanğıcıdır".

**N.Miri bildirdi ki, son zamanlar düşmən ordusunun çox böyük itkilər verməsi, Azərbaycan ordusunun fəallaşması regionda yaranmış geosiyasi vəziyyətlə bağlıdır:** "Azərbaycanın Qarabağ cəbhəsindəki siyasətində dəyişikliklər baş verib. Baş verənlər yeni bir siyasətin təzahürləridir və bu basqılı siyasət artan xətlə davam edəcək. Zakir Həsənovun səngərə gedib əsgərlərlə bir boşqabdan çörək yeməsi çox müsbət hadisədir. Mənəvi psixoloji cəhətdən əsgərlərə ruh verir. Komandir öndə olduğu təqdirdə əsgər torpaq uğrunda canından belə keçməyə hazır olur. Bu hadisənin baş tutmasına görə naziri təbrik etmək olar".

**Qarabağ qazisi Rey Kərimoğlu bildirdi ki, Z.Həsənov nazir təyin olunandan sonra ordumuzda müsbət dəyişikliklər baş verib, əsgər və zabitlər arasında ruh yüksəkliyi yaranıb:** "Bu, düşmənə verilən cavablarda da özünü göstərir. Azərbaycan ordusunun şəxsi heyəti müdafiə nazirinə güvənir. Bu çox vacib bir məqamdır".

**R.Kərimoğlu döyüşdüyü günləri xatırlamaqla fikrini davam etdirdi:** "1992-ci il fevralın 1-2-də Ağdamda "Fərrux" deyilən bir yüksəklik vardı, ağır döyüşlərdən sonra həmin yüksəkliyi almışdıq. 2 gün idi ki, heç yemək də yeməmişdik. "Fərrux" əməliyyatından sonra kəndin müdafiəsində dayanan əsgərlərə o dövrdə Ağdamın icra başçısı olan Səyyaf Verdiyevin adından arasında pendir və kolbasa olan para çörək, bir butulka "Sirab" suyu, 2 qutu "Astra" siqareti, 2 qutu kibrit gətirmişdilər. Elə bilirdik ki, dünya bizimdir, arxamızda bütün Azərbaycan dayanıb, dağ durduğunu hiss edirdik. 15 nəfər idik, elə bilirdik ki, gedib Xankəndini də ala bilərik. Ələlxüsus da bayram ərəfəsində nazirin əsgərlərlə görüşə getməsi ruh verən bir məsələdir. Zakir Həsənov nazir təyin olunandan sonra əsgərə münasibət də, yeməyi də, geyimi də, silahı da dəyişib. Bunu əsgərlər də hiss edir və döyüş ruhu qalxır. Bu çox ciddi bir faktordur".

**R.Kərimoğlu deyir ki, nazirin bəyanatları Azərbaycan və Ermənistan cəmiyyətlərinədir:** "Nazir Azərbaycan ordusunun səviyyəsinin işğaldakı torpaqları azad etməyə imkan verdiyini bəyan edir və bunun hər an baş verə biləcəyinə söyləyir. Bu düşmən ordusuna psixoloji baxımdan mənfi təsir edir, biz Qarabağ qazilərini çox sevindirir. Nəhayət ki, ordu ilə komandanlıq, xalq arasında vəhdət var. Arzu edirəm ki, tezliklə işğal altında olan öz ərazimizdə hərbi əməliyyatlara başlayaq. Düşmən gec-tez Azərbaycan ordusunun hərbi qüdrətini görəcək. Zakir Həsənovun bəyanatının real əsasları var".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 63 (6091) 27 mart 2015

# ABŞ yenidən Qafqaza qayıdır

**ABŞ bir müddətdir Cənubi Qafqazda zəifləyən mövqelərini yenidən bərpa etmək üçün ciddi fəaliyyətə keçib. Bu barədə "Yeni Müsavat"a diplomatik qaynaqlardan məlumat daxil olub. Məlumatda mühüm iddialar var. Hələ ötən ilin sonlarında Amerikanın Gürcüstan, Azərbaycan və Ermənistandakı vəziyyətdən narahat olduğuna dair informasiyalar artmışdı. Həmin informasiyaların məntiqi bu idi ki, Gürcüstanda Saakaşvilinin hakimiyyətdən getməsi, Ermənistanın Avrasiya İttifaqına qoşulması və Azərbaycana Rusiyanın artan təzyiqləri Ağ Evi "yeni inqilabi planlar" istiqamətində hərəkətə keçirib.**




# Amerikanın yeni inqilab planı Tiflisdən başlayır

## Vaşinqton Saakaşvilini hakimiyyətə qaytarmaq işinə start verib; prezident İlham Əliyevin çıxışı göstərir ki, Azərbaycan iqtidarı Qərbin planlarından xəbərdardır; mümkündür ki, Gürcüstanda baş verə biləcək inqilabi proseslər ölkəmizə də sıçrasın, amma...

Təsadüfi deyil ki, məhz bu ərəfədə Azərbaycan hakimiyyəti də sözsüz ki, daha ciddi informasiyalara əsaslanaraq, ABŞ-ı yeni rəngli inqilablarda və "beşinci kolon" yaratmaqda ittiham etməyə başladı.

Bu ilin fevralında Vaşinqtonda "Cənubi Qafqazda təhlükəsizlik və enerji məsələləri" mövzusunda keçirilən konfrans Ağ Evin niyyətlərini bir daha ortaya qoydu. Həmin konfransda əsas diqqətin Rusiyanın Cənubi Qafqaz ölkələrinə neqativ təsirinə və roluna yönəldilməsi ABŞ-ın regionda yenidən "rəngli inqilablar" hazırladığı barədə ehtimalları artırdı. Ağ Evin xarici siyasətinə təsiri olan ekspertlərin iştirak etdiyi həmin konfransda gəlinən yekdil rəy belə oldu ki, Birləşmiş Ştatların Cənubi Qafqaza münasibətdə laqeydliyi region ölkələri tərəfindən Amerikanın zəifliyinin sübutu kimi qəbul ediləcək ki, bu da bölgədə Rusiya və İranın təsirinin güclənməsinə gətirəcək.

Qəzetimizə verilən məlumatda da vurğulanır ki, martın 21-də Tiflisin baş meydanında eks-prezident Mixail Saakaşvilinin lideri olduğu Milli Birlik Partiyasının təşəbbüsü ilə keçirilən çoxminli mitinq Amerikanın yeni revanş cəhdi barədə xəbərləri doğruldur. Saakaşvilinin zəifləməsindən istifadə edərək hakimiyyətə gələn rusiyapərəst oliqarx Bdzina İvanişvili Gürcüstanı yenidən Kremlin təsir dairəsinə salıb. Broker-lider tipli siyasətçi olan İvanişvili hazırda hakimiyyətdə bilavasitə təmsil olunmasa da, Gürcüstanı pərdə arxasından yenə də özü yönləndirir. Bu iddianı Gürcüstandakı siyasi ekspertlər də müdafiə edirlər.

Saakaşvilinin hakimiyyətdən getməsi ilə Qərbin nəinki Gürcüstana, ümumilikdə regiona təsir imkanları kifayət qədər azalıb. Buna görə də Vaşinqtonun yenidən Saakaşvilini hakimiyyətə gətirmək prosesinə start verməsi normaldır və görünən də budur ki, bu planın reallaşması üçün Gürcüstanda ictimai atmosfer də uyğundur. Saakaşvilinin son proseslərlə bağlı açıqlaması da çox şey deyir: **"Geosiyasi vəziyyət dəyişir. Bizim dostlarımızın mövqeləri isə güclənir. Bütün bunlar mənim Gürcüstana qayıdışıma şərait yaradacaq"...**

Xatırladaq ki, ötən ilin yay aylarında Saakaşviliyə qarşı bir neçə ittiham irəli sürülüb. O, 4.7 milyon dollara yaxın dövlət vəsaitini israf etməkdə, 2007-ci il 7 noyabr mitinqində iştirak edənlərə divan tutmaqda, "İmedi" telekanalının binasına basqında, biznesmen Badri Patarkatsişvilinin əmlakını mənimsəməkdə ittiham edilir. Rəsmi məlumatlarda göstərilir ki, üstəlik, o, istintaqla əməkdaşlıqdan imtina edib və ifadə vermək üçün gəlməyib. Tiflis məhkəməsi Saakaşvili barəsində qiyabi həbs hökmü çıxarıb. Eks-prezident 2013-cü ilin noyabr ayında Gürcüstanı tərk edib və o vaxtdan bir daha vətənə qayıtmayıb.

Gürcüstanda parlament seçkilərinə iki ildən az müddət qalsa da, artıq Qərb dairələrində növbədənkənar seçkilərdən danışmağa başlayıblar. Unutmayaq ki, tarixə "Qızılgül" inqilabı kimi düşən hadisələr Gürcüstanda 2004-cü ilin noyabrında, parlament seçkilərindən sonra başlamışdı.

"Rəngli inqilablar" təcrübəsi göstərir ki, Qərb hakimiyyətlərin dəyişməsində legitimliyi və "məxməri" xarakteri saxlamaq üçün seçki kampaniyalarından ciddi istifadə edir. Xatırlatmaq yerinə düşər ki, 2015-ci ildə Azərbaycanda, 2016-da Gürcüstanda, 2017-ci ildə isə Ermənistanda parlament seçkiləri keçiriləcək.

***

Azərbaycanla bağlı Qərbin hansısa gizli planları olduğu haqda yalnız ehtimallar var. Bir müddətdir ki, ABŞ-la Azərbaycan hakimiyyəti arasındakı münasibətlər tam məlum olmayan səbəblər üzündən gərgindir. Hakimiyyət sözçüləri ABŞ-ı Azərbaycanda inqilab etmək istədi ilə açıq şəkildə suçlayırlar. Bu ilin fevralında Bakıya səfər edən ABŞ dövlət katibinin Avropa və Avrasiya üzrə köməkçisi Viktoriya Nuland "Azərbaycanda "rəngli inqilab"ların hazırlanması ilə bağlı Vaşinqtonun ünvanına səslənən ittihamları ABŞ necə qiymətləndirir" sualının cavabında demişdi ki, inqilab o zaman mümkündür ki, hökumət, vətəndaş cəmiyyəti və sadə insanlar arasında dialoq olmasın: **"Dünyada ən güclü ölkələr vətəndaş cəmiyyəti ilə hökumət arasında açıq və fəal təmasların olduğu ölkələrdir. Hər hansı ölkədə açıq və səmimi dialoq varsa, onda "rəngli inqilab"a lüzum qalmır. "Rəngli inqilablar" o zaman baş verir ki, hökumətlə vətəndaş cəmiyyəti arasında soyuqluq, gərginlik və bağlı qapılar olsun. Yəni onların bir-birilərinin ehtiyaclarını həll etmək üçün zəruri və lazımi şərait olmasın. Ümidvarıq ki, hökumətlə vətəndaş cəmiyyəti arasında güclü dialoq, eyni zamanda ABŞ-la Azərbaycan arasında yaradılacaq təmas və dialoqlar təhlükəsizlik və enerji sahələrindəki olduğu kimi, bu sahədə də vəziyyəti yaxşılaşdıracaq".**

Nuland Bakıda müxalifətlə təmas qurmadı və kifayət qədər ehtiyatlı mövqe sərgilədi. Amma Nulandın səfərindən sonra da Vaşinqtonla münasibətlərin əvvəlki məcraya qayıtmaması rəsmi Bakının Amerikanın "inqilab hazırlamırıq" sözlərinin səmimiyyətinə inanmadığını göstərdi.

***

Azərbaycan prezidenti İlham Əliyevin Novruz bayramında etdiyi çıxışı əsasən Qərbin tənqidinə yönəltməsi də diqqətçəkəndir. Qərbin Azərbaycana münasibətindən danışan prezident "ədalət pozulduqda hər şey pozulur, inam pozulur", - deyərək fikirlərini belə davam etdirib: **"Sanki dünyada yeni bir dəyərlər sistemi formalaşır. Ədalət əvəzinə qeyri-ədalətli yanaşma, bərabərlik əvəzinə qeyri-bərabərlik, düzgünlük əvəzinə riyakarlıq, yalan. Bax, biz buna qarşı mübarizə aparırıq. Əlbəttə, Azərbaycan böyük dövlət deyil, amma bizim də kifayət qədər gücümüz var ki, öz sözümüzü deyək, bölgədə və qitədə gedən proseslərə təsir edək. Bu gün biz görürük ki, dırnaqarası ekspertlər, politoloqlar, keçmiş dövlət xadimləri, mətbuat orqanları sanki Azərbaycana qarşı soyuq müharibə elan etmişlər. Bütün bu səylərin heç bir nəticəsi yoxdur, ola da bilməz. Dünyada elə qüvvə yoxdur ki, Azərbaycan xalqının iradəsinə təsir edə bilsin".** Dövlət başçısı "dırnaqarası ekspertlər, politoloqlar, keçmiş dövlət xadimləri, mətbuat orqanları" dedikdə ad çəkməsə də, Amerikada Azərbaycandakı vəziyyətlə bağlı tez-tez keçirilən müzakirələrə işarə etdiyi aydındır.

Prezident Azərbaycanda insan haqlarının vəziyyəti və korrupsiya ilə bağlı tənqidlərə də sərt cavab verib: **"Bax elə Avropanın mərkəzində *(Almaniyanın Frankfurt şəhərindəki etirazları nəzərdə tutur - red.)* yüzlərlə nümayişçi döyülərək, söyülərək həbs edilibdir. Başqa yerlərdə insanlar boğularaq, güllələnərək öldürülürlər. Heç kim də buna görə məsuliyyət daşımır. Haradadır o qeyri-hökumət təşkilatları ki, bizi ittiham edirlər? Niyə susurlar? Niyə öz səslərini ucaltmırlar? Niyə o ölkələri ittiham etmirlər? Cürətlərimi çatmır? Avropanın mərkəzində nümayişçilərin etirazına səbəb bir binanın inşası olmuşdur. Bizim bütün Avropa Oyunlarına hazırlıq işlərinə xərclədiyimiz vəsait bir binaya xərclənib. Bəs haradadır "Transparency International"? Niyə bu işlərdə öz sözünü demir? Avropada nəqliyyatla bağlı bir infrastruktur obyekti var. On ildir inşa edilir. Bizim Avropa Oyunlarının hazırlanmasına xərclədiyimizin ikiqatı qədər oraya pul xərclənib, hələ ki tikintisi qurtarmayıb. Bəs niyə bu barədə danışmırlar?"**

Doğrudur, bəzi ekspertlər iddia edir ki, Vaşinqton rəsmi Bakının anti - Qərb ritorikasının səbəblərini Rusiya amili ilə bağlayır. Yəni Qərb paytaxtları Azərbaycanın aqressiv Kreml siyasətindən qorunması üsullarını anlayışla qəbul edir. Amma hər şey göründüyü qədər sadə də deyil. Vaşinqton Rusiya hakimiyyətinin mövqelərinin getdikcə Azərbaycanda möhkəmlənməsindən narahatdır. Bu baxımdan mümkündür ki, Gürcüstanda olası inqilabi proseslər Azərbaycana da sıçrasın və ya burdakı müxalifəti də fəallaşdırsın. 2015-ci ilin parlament seçkilərinin hakimiyyət üçün heç də asan keçməyəcəyi və beynəlxalq birliyin şərtlərinin yerinə yetirilməyəcəyi təqdirdə özünütəcrid vəziyyətinə düşəcəyi barədə mesajlar verilib. Azərbaycan hakimiyyəti isə seçki ilində Qərbə "əzələ" nümayiş etdirərək bir sıra QHT təmsilçilərini "Amerikanın adamları" kimi məhkəmə qarşısına çıxarıb, o cümlədən Avropa təsisatları ilə sıx əlaqələri olan hökumət tənqidçilərinin həbsini sanksiyalaşdırıb.

***

Amerikanın yeni inqilablar planlarına baxmayaraq, o da faktdır ki, Azərbaycan hakimiyyətinin mövqeləri indi kifayət qədər güclüdür və Gürcüstandan fərqli olaraq, təşkilatlanmış alternativi yoxdur....

❑ Xəbər xidməti



# Peşmanlıq qanunu

Zamin HACI
zaminhaci@gmail.com

**Novruz tədbirləri bitib getdi. Uca millətimiz daha bir saxtakar bayramlaşmasını yola verdi. Şəkərbura və paxlava, səməni, Keçəl və Kosa kimi saxta atributlar, personajlar bizim yaza necə girməyimizi həmişə qəşəng göstərir. Misal üçün, hamı paxlava yeyib şişməsindən şikayətlənir. Yaxud yaşıllıqları qırıb boz divar şəhərinə çevirdikləri ölkədə nəlbəkidə taxıl cücərdirlər. Ən maraqlı şikayəti AzDrama zəhmətkeşləri eləmişdilər: onların bir çoxu hökumətin bulvarda, İçərişəhərdə qayırdığı Novruz tədbirlərinə Keçəl və Kosa sifətində qatılmaqdan imtina etmişdi. Demişdilər ki, qabaqkı illərdə fəxri adı *(əməkdar artist, xalq artisti, hökumətin təlxəyi və sairə)* olan artistləri Novruz bayramına sürümürdülər, indi də getmirik. Qoy "poqonu olmayan" artistlər getsin. Yəni aktyorlar dolayısı ilə Keçəl və Kosa roluna girməyin düşüklük olduğunu bildirdilər. Düz də edilər məncə. Ömrüm yarıdan keçib, mən hələ o murdar görkəmli personajların hansının müsbət, hansının mənfi qəhrəman olduğunu bilmirəm. Ümumiyyətlə, nə işə yaradıqlarını anlamıram. Elə bil icra hakiminin ümumi işlər üzrə müavinidirlər.**

Alovu söndürüb külü ilə oynayan, Prometeylərini Kürdəxanı zindanında çürüdən millətin tonqal qalayıb hoppanmağı da başqa facia idi. Ölkənin hər yerində bir saxtakar beş-on odunu qalaqlayıb tonqal qalayır, fotoqraflara poza verirdilər.

Azərbaycan cəmiyyətinin ikiüzlülüyünün daha bir sübutu bayram günlərində sosial şəbəkədə göründü. Tanınmış blogger və fotojurnalist Mehman Hüseynov Bakıda bir əlilin araba ilə avtobusa minmək problemini videoya çəkib yaymışdı. Problem qısa olaraq belə idi: əlil Orxan Adıgözəl dayanacaqda arabası ilə durub, getmək istəyir, avtobus sürücüsü isə onu götürməkdən nümayişkaranə şəkildə imtina edir.

Dünyada aksiom - müzakirə edilməsi belə ayıb olan şeylər var. Misal üçün, uşaqlara sevgi, fiziki qüsuru olanlara hörmət, köməksizlərə qayğı və sairə. Ancaq bizdə bunları hələ müzakirə edirlər. İnternetdə, sosial şəbəkələrdə utanmazlıqla belə şərhlər yazırdılar: "Əlili avtobusa mindirmək sürücünün borcu deyil", "Avropada belədirmi?", "Bəs Mozambikdə necədir? Videosuna baxın", "İndi o şofer işsiz qaldı, uşaqları nə yeyəcək?", "Gücünüz çatırsa hökumətdən yazın" və sairə. Pəncərədən bayıra baxmağa qorxanlar üzərində məhkəmə işi olan, ölkədən çıxışına qadağa qoyulan, dəfələrlə təzyiqlərlə üzləşmiş Mehman Hüseynovu qınayırdılar.

21-ci əsrdə "Əlili avtobusa kim mindirsin" mövzusunu müzakirə edən millətin yaşamaq haqqı yoxdur. Kəskin çıxdı, anlayıram, amma ayrı cür yazmaq da mənasızdır. Camaat Marsda koloniya qurmaq haqda fikirləşir, bunlar velosipedi kəşf edirlər. Sözgəlişi, elə bu ay İsmayıllı rayon icra hakiminin çıxışını oxumuşdum, deyirdi rayonda analoqu olmayan velosiped zavodu qayıracağıq. Anlaşılmırdı burda analoqu olmayan ifadəsi nəyə aiddir: başqa rayonda belə zavodun olmadığına, yoxsa İsmayıllı velosiped zavodunda düzəldilən qurğuların dalına vedrə də bağlanacağına?

Dağlıq Qarabağda yaşayan erməni əsgərin qaçıb bizim orduya təslim olması mövzusu aktualdır. Ərəstun Oruclu təklif edib ki, onu əsir adlandırmayaq. İsa Qəmbər isə Qarabağ ermənilər üçün "Peşmanlıq qanunu" hazırlamaq təklifi irəli sürüb. Belə qanun Türkiyədə varmış, PKK tərəfdarı olan kürdlər o qanundan yararlanıb təzədən dövlət tərəfə keçə bilirmiş.

Bunlar hamısı gözəl sözlərdir. Ancaq peşmanlıq qanunundan niyə hamımız üçün hazırlanmasın? Sorğu keçirsən sadə vətəndaşların yalan olmasın, bəlkə doxsan faizi bu ölkədə doğulmağından peşman olduğunu söyləyəcək. Peşmanlıq ümummilli şəkildədirsə, bundan niyə ancaq bir qrup etnik azlıq yararlanmalıdır? Biz də qanuni şəkildə peşman olmaq istəyirik. İstəyirik bizi üçüncü ölkəyə versinlər. Tonqalın üstündən hoppanıb ora düşməyə hazırıq. Hara olur olsun, fərq eləmir. Təki bizim az olduğumuz yer olsun.

# Fransanın Qafqaz siyasətində "At gedişi"

**Xəbər verildiyi kimi, Fransa prezidenti Fransua Olland aprelin axırlarında Azərbaycan və Ermənistana səfər etməyə hazırlaşır. Fransanın Avropa işləri üzrə dövlət katibi Arlem Dezir bununla bağlı bildirib ki, Olland İrəvan və Bakıya aprelin 24-ü və 25-də edəcəyi ziyarəti zamanı azərbaycanlı və erməni həmkarları ilə Dağlıq Qarabağ problemini müzakirə edəcək.**



## Parisdən Azərbaycana 24 aprel- Qarabağ reveransı

### Ollandın saxta soyqırımın "yubiley" törəninin ardınca İrəvandan Bakıya gəlmək istəyinin azı, 4 səbəbi var; həmsədr ölkənin qəfil jesti sülh prosesinə təkan verməklə yanaşı, başqa hədəflərə də hesablanıb; prezidentlərin Paris görüşündən dərhal sonra ermənilərin ərazilərimizdə hərbi təlimlərə başlayıb təxribata getməsi təsadüf idimi?..

Bəllidir ki, bundan qabaq Fransa dövlət başçısının aprelin 24-də İrəvanda saxta soyqırım iddialarının 100 illiyi ilə bağlı tədbirə qatılacağı xəbəri yayılmışdı. Fransua Ollandın Ermənistanla yanaşı, Azərbaycan paytaxtına da edəcəyi səfərin məqsədinə toxunan diplomat qeyd edib ki, "Paris Qarabağ konfliktinin qəti şəkildə həllinə nail olmaq üçün ABŞ və Rusiya ilə birgə həmsədr olaraq tam həcmdə ATƏT-in Minsk Qrupunun fəaliyyətinə cəlb edilib".

**Onun sözlərinə görə, hazırkı status-kvo Azərbaycan və Ermənistanın maraqlarına cavab vermir.** "Təmas xəttində son aylardakı gərginlik problemin dinc həllinə yönəlik "Madrid prinsipləri"nin həyata keçirilməsinin kəskin zərurət olduğunu sübut edir. Deməli, Fransa fəal şəkildə bu yöndə səylərini davam etdirəcək" - əlavə edib Fransa dövlətinin rəsmisi.

**Fransanın Ermənistandakı səfiri Jan Şarpantye də Ollandın aprelin 24-də İrəvana gələcəyi xəbərini təsdiqləyib. Diplomat deyib ki, prezidenti 120 nəfərdən ibarət yüksək çinli məmurlar və jurnalistlər müşayiət edəcək.** "Biz səfirlik olaraq Ollandın ziyarətinin təşkili yönündə çalışırıq. Hələlik dəqiq bilmirik, məhz kimlər onu müşayiət edəcək. Ancaq nümayəndə heyətinə Fransanın erməni təşkilatının nümayəndələri də daxil olacaq" - bildirib səfir.

Göründüyü kimi, Fransa lideri erməni lobbistləri ilə birgə Ermənistana getməklə bir daha ermənilərə xüsusi rəğbət bəslədiyini nümayiş etdirmiş olacaq. Səfərin diqqətçəkici siyasi özəlliklərindən biri də zatən bu sayıla bilər...

***

Bu mənada Fransua Ollandın İrəvandan sonra - aprelin 25-də Türkiyəyə deyil, məhz Azərbaycana yollanmağı planlaşdırması Qarabağ məsələsinin həllinə rəsmi Parisin verdiyi önəmdən daha çox, əslində neytral vasitəçi imicini qoruyub saxlamaq, İrəvanla yanaşı, Bakının da etimadını itirməmək məramı güdür. Eyni zamanda bu qərar saxta soyqırım törəninə qatılmağın labüd olaraq, Bakı və Ankarada yaradacağı haqlı qıcıq hisslərini arxa plana sürüşdürmək, Ermənistan səfərinin siyasi önəmini azaltmaq niyyəti daşıya bilər. Belə bir gedişi obrazlı şəkildə Fransanın Güney Qafqaz siyasətində taktiki "At gedişi" də adlandırmaq mümkündür.

Bu manevri diktə edən yanakı motivlər də yox deyil. O sırada Avropa Birliyinin aparıcı dövlətlərindən biri kimi Fransanın son vaxtlar öz qonşuları üçün ciddi təhdid mənbəyinə çevrilən Rusiya qarşısında Azərbaycanı yalqız buraxmamaq, ona bir növ siyasi-mənəvi moral vermək, Moskvanın Dağlıq Qarabağ kartından yararlanıb bölgəni qarışdırmaq planlarına mane olmaq məramını vurğulamaq olar.

Sonuncu hədəf sözsüz ki, ümumən Qərbin regiona yönəlik strateji maraqlarına da uyğundur. Unutmaq olmaz ki, Ukrayna böhranı fonunda Qərb indi heç vaxt olmadığı qədər Dağlıq Qarabağ məsələsində patronajlığın, həlledici söz sahibliyinin Kremldə qalmasında maraqlı deyil.

***

Xatırladaq ki, Azərbaycan və Ermənistan arasında prezidentlərin son görüşü ötən il oktyabrın 27-də, Parisdə, Yelisey sarayında olub. Bu görüş konkret bir sənədin imzalanması ilə nəticələnməsə də, Fransa tərəfi üçün görüş superdövlət imicini təsdiqləmək baxımından az əhəmiyyət daşımırdı.

Fransua Ollandın təxminən 6 aylıq fasilədən sonra prosesə yeni stimul vermək üçün regiona şəxsən təşrif buyurması təqdir edilməyə bilməz. Ancaq aydındır ki, Qərbi təmsil eləsə də, Qarabağ məsələsində təkcə Parisin təşəbbüskarlığı kifayət deyil. Burdaca yada salmaq yetər ki, 27 oktyabr görüşündən cəmi 10 gün sonra erməni işğalçı qüvvələri ərazilərimizdə geniş miqyaslı hərbi təlimlərə başlamışdılar ki, bunun da "finalı" noyabrın 12-də erməni hərbi vertolyotunun vurulması ilə nəticələndi və sülh danışıqları ətrafında atmosfer daha da pisləşdi.

Bundan əlavə, məhz Paris görüşünün başladığı gün - oktyabrın 27-də Xankəndində azərbaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində qondarma məhkəmə prosesi start götürmüşdü...

***

Sadalananlar Fransanın vasitəçiliyinə Kremlin göstərdiyi qıcığın özünəməxsus reaksiyası idi. Bəs bu dəfə Moskvadan hansı gözlənilməz reaksiyalar mümkündür? Fransua Olland İrəvandan Bakıya gəlməmişdən öncə orada eyni tədbirə qatılacaq Vladimir Putinlə də görüşüb Qarabağa dair məsləhətləşmələr aparacaqmı?

Bu suallar hələ ki açıqdır. Bir şey artıq dəqiqdir ki, Olland Bakıya Çanakkaladan gələcək - Azərbaycan prezidenti İlham Əliyevdən fərqli olaraq.

❑ **Siyasət şöbəsi**

# ATƏT PA-nın xüsusi nümayəndələrinin Bakı səfəri təxirə salındı

**ATƏT Parlament Assambleyasının (PA) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Joao Suareş və qurumun sərhəd məsələləri üzrə xüsusi nümayəndəsi İqnasio Sançesin Azərbaycana səfərləri təxirə salınıb.**

Azərbaycanın ATƏT PA-da nümayəndə heyətinin rəhbəri, Milli Məclisin sədr müavini Bahar Muradova APA-ya açıqlamasında bildirib ki, səfərin təxirə düşməsinə səbəb proqramda olan bəzi dəyişikliklərdir.

B. Muradova qeyd edib ki, hazırda proqram üzərində işlənilir və yaxın vaxtlarda onların səfərləri baş tutacaq. Sançes və Suareş Azərbaycanla yanaşı, Gürcüstan və Ermənistana da səfər edəcək.

Qeyd edək ki, hər iki şəxsin səfəri martın 15-16-da gözlənilirdi.



İqnasio Sançes



Zbiqnev Bzejinski

# Bzejinskinin “Rusiya təhlükəsi” xəbərdarlığı ciddi qəbul olunur

## Vəfa Quluzadə: “Moskva bu arzusunu o zaman həyata keçirə bilər ki, Ukrayna cəbhəsində uğur qazanacaq, iqtisadiyyatını dirçəldəcək”

**“Rusiya prezidenti Vladimir Putin çətin ki, öz aqressiv siyasətini Ukraynaya hücumla yekunlaşdırsın. Onun növbəti hədəfləri qismində Baltikyanı ölkələr, Moldova, Gürcüstan, Azərbaycan və hətta Polşa ola bilər”.**

Musavat.com-un xarici qaynağa istinadən verdiyi xəbərə görə, bu barədə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri, nüfuzlu politoloq Zbiqnev Bzejinski Avropa nəşrlərindən birinə müsahibəsində bildirib: “Mən peyğəmbərlik edib qara ssenarilər haqda proqnoz etmək istəmirəm, amma həqiqətən risk var ki, Rusiya təcavüzü Ukrayna ilə yekunlaşmayacaq. Bunu Putinin ardıcıl şəkildə seçdiyi yolun analizi göstərir”. Onun sözlərinə görə, situasiyanın bundan sonrakı inkişafı Ukraynadakı konfliktin gedişatından asılı olacaq: “Əgər Ukraynadakı müharibə Rusiya üçün asan hərbi uğur və qələbə ilə nəticələnsə, o zaman bənzər şeylərin Baltikyanı ölkələrdə mümkünlüyü diqqətə alınmalıdır. Növbəti qaynar nöqtələr Moldovada, Gürcüstanda, Azərbaycanda, sonralar isə Polşada peyda ola bilər. Rusiya indi ekspansiya siyasəti yürüdür və təəssüf ki, hər bir ssenari realdır”. Z.Bzejinski dünyada ciddi politoloq kimi tanınır. Hətta onun yazdığı “Böyük iflas”, “Hakimiyyət və prinsip”, “Böyük şahmat taxtası”, “Seçim: qlobal hakimiyyət, yaxud qlobal liderlik” kimi əsərləri, ekspert rəyləri bir sıra hallarda hadisəyə çevrilib. Bu mənada onun Putin Rusiyasının perspektiv planları ilə bağlı anonslarının sadəcə antitəbliğat materialı olmadığı şübhəsizdir. Artıq Avrasiya Birliyinin vahid valyutasına keçidlə bağlı *(vahid ordu məsələsi ilərdir reallaşdırılıb-C.T.)* tələbini ortaya qoyan Rusiya prezidentinin “Yeni SSRİ” planını gerçəkləşdirməkdə israrlı olması bəllidir və bu təhlükəli plan Azərbaycanı da öz ağuşuna ala bilər.

Hələ 60-cı illərdə Nyu-Yorkda Kolumbiya Universitetinin professoru vəzifəsini tutan, yarım əsrdən çoxdur siyasətlə məşğul olan, keçmiş prezident Kennedinin seçki kampaniyalarında aktiv şəkildə iştirak edən, ABŞ Dövlət Departamentinin siyasi planlaşma şurasının üzvlüyünə seçilən və burada SSRİ-yə qarşı aparılan “soyuq müharibə” strategiyası üzrə fəaliyyətlə məşğul olan Bzejinskinin Azərbaycanın da adını təhlükəli ssenaridə hallandırması təbii ki, bizi ciddi düşündürməlidir.

**Politoloq Vəfa Quluzadə “Yeni Müsavat”a açıqlamasında Bzejinskinin təhlükə ilə bağlı xəbərdarlığının real olduğunu vurğuladı:** “Əslində biz həmişə təhlükədəyik və təhlükədən çıxmamışıq. Biz ötən əsrlərdə də daim Rusiya təhlükəsi ilə üz-üzə olmuşuq. 1918-ci ildə qurduğumuz dövlətimizi Rusiya dağıdıb, Azərbaycanın tarixi ərazilərində Ermənistan dövlətini yaradıb, müharibələrdə erməniləri müdafiə edib, torpaqlarımızı onlara bağışlayıb. ”Qızıl ordu” Azərbaycan dövlətini yıxandan sonra ölkəmizdə repressiyalar aparılıb, bütün təhsilli adamlar hamısı “müsavatçı” kimi tutulub, məhv edilib. Konkret olaraq bizim nəsil daim təhlükə içində yaşayıb. Bu gün də həmin təhlükə davam edir. 20 faiz torpağımız işğaldadır, hər gün müharibə təhlükəsi artır. Üstəlik, bu müharibədə Rusiyanın Ermənistanın tərəfində çıxış etməsi təhlükəsi də xeyli realdır. Lakin bu gün biz artıq təhlükəyə öyrəşmişik, ona görə də mövcud təhlükələri nəzərə almırıq, gənclərimiz heç nəyə məhəl qoymayaraq gündəlik həyatını yaşayır”.



Vəfa Quluzadə

Ancaq V.Quluzadə bildirdi ki, Azərbaycana yönəlik təhlükə Rusiyanın Ukraynadakı fəaliyyətinin nə qədər uğurlu və uğursuz olmasından asılıdır. Politoloq Rusiya Liberal-Demokrat Partiyasının sədri V.Jirinovskinin Qarabağda rus qoşunlarını yerləşdirməklə bağlı təklifinə də diqqət çəkdi: “Nəzərə alsaq ki, Jirinovski daim Kremlin fikrini səsləndirir, deməli, Rusiyanın Azərbaycan torpaqlarında gözü var. Amma Moskva bu arzusunu o zaman həyata keçirə bilər ki, Ukrayna cəbhəsində uğur qazanacaq, iqtisadiyyatını dirçəldəcək. Amma hələlik Rusiya çökməyə doğru gedir, iqtisadiyyatında dirçəliş yoxdur. Ancaq istənilən halda Rusiya daim təhlükədir. Özü də təkcə Azərbaycana deyil, Gürcüstana və hətta Ermənistanın özünə də. Gürcüstan kimi Ermənistan da istərdi ki, normal dövlət kimi bütün qonşuları ilə normal münasibətlərdə olsun, lakin buna Rusiya imkan vermir. Ümumiyyətlə, müasir dünyada yeganə qlobal təhlükə Rusiyadan gəlir. Çox təəssüf ki, bizim aşağı təbəqədən olan bir sıra insanlarımız Rusiya bazarlarına getmək imkanlarının olması səbəbindən şimal qonşumuzun əvvəlki dövrünə həsəd aparırlar. Mənsə onlara deyirəm ki, siz narahat olmayın, Amerika bu müharibəni udanda Rusiyanın üstünə benzin töküb yandırmayacaq, yenə siz Rusiya bazarlarına gedə biləcəksiniz. Lakin o halda normal Rusiya dövləti Azərbaycan torpaqlarından əl çəkəcək”.

❑ **Cavid TURAN**

# Jirinovski rus ordusunu Qarabağda yerləşdirməyə çağırdı

## Elxan Şahinoğlu: “Biz Rusiya qoşunlarının bölgədə yerləşdirilməsinə razılaşsaq, gərək onda birdəfəlik Qarabağdan imtina edək”



Vladimir Jirinovski

**“Əgər Qarabağ Azərbaycana qaytarılsa, ermənilər narazı qalacaq. Əgər indiki status-kvo qəbul edilsə, siz narazı qalacaqsınız. Mən üçüncü variantı təklif edirəm - Qarabağın Moskvanın nəzarəti altına keçməsini elan etmək olar”.**

Bunu Rusiya Dövlət Dumasının vitse-spikeri, Rusiya Liberal-Demokrat Partiyasının sədri Vladimir Jironovski haqqin.az saytının baş redaktoru Eynulla Fətullayevə müsahibəsində deyib.

Son bir neçə ay, xüsusilə də Bakı səfərindən sonrakı qısa zaman kəsiyi istisna olmaqla, anti-Azərbaycan mövqeyi ilə seçilən Jirinovskinin yenidən öz ampulasına qayıtması gözlənilən idi. Onun Azərbaycanda yüksək səviyyədə qarşılanmasına sərt reaksiya veran bəzi ekspertlər bu münasibətin də LDP sədrini dəyişməyəcəyi qənaətindəydilər. Göründüyü kimi, Azərbaycan mediasına müsahibəsində də Jirinovski ermənilərin maraqlarına xidmət edən mövqe sərgiləyib. Bir qayda olaraq Rusiya hakimiyyətinin planlarını tirajlamaqla, hazırlanan ssenarilərin anonsunu verməklə populyar olan Jirinovskinin bu dəfə də Moskvanın arzularını dilə gətirdiyi şübhə doğurmur.

**ALD sədri iddia edib ki, yalnız rus ordusunun qayıdışı ilə sabitlik yarana bilər:** “Bölgədəki ermənilərin və azərbaycanlıların təhlükəsizliyini, insanların sərbəst hərəkətini qoy Rusiya təmin etsin, iqtisadiyyatı bərpa etsin. Bunu aralıq variant kimi sınaqdan çıxarmaq olar. Qarabağda Azərbaycan bayrağının dalğalanmasını istəmirlər. Ümumi bir bayraq fikirləşib tapmaq olar. Məsələn, MDB-nin bayrağını. O bayraqda qoy Rusiya, Azərbaycan və Ermənistan bayraqlarının elementləri olsun”.

“Jirinovski ilk dəfə deyil ki, Qarabağ probleminin həlli üçün Rusiya ordusunun bölgəyə yeridilməsini təklif edir. Mən şübhə etmirəm ki, Kremldəkilər də belə düşünürlər, sadəcə, hələ açıq şəkildə dilə gətirmirlər”.

**Politoloq Elxan Şahinoğlu bu fikirləri “Yeni Müsavat”a açıqlamasında bildirdi. Ekspert güman edir ki, ola bilsin Azərbaycan və Ermənistan prezidentləri ilə görüşdə buna işarə vururlar. Lakin E.Şahinoğlu rus qoşunlarının Qarabağa gətirilməsini fəlakətli sayır:** “Rusiya qoşunlarının Dağlıq Qarabağda yerləşdirilməsi Azərbaycanın milli və təhlükəsizlik maraqlarının əleyhinədir. Yaxın tariximiz də bundan xəbər verir. Jirinovski bizi inandırmaq üçün deyir ki, guya rus qoşunlarının olduğu yerdə separatizmə imkan verilmir, qayda-qanun yaradılır. Məgər Dağlıq Qarabağda separatizm sovet və sonradan Rusiyanın hərbi birləşmələrinin bölgədə var olduğu dönəmdə başladımı? Separatçılar məhz Xankəndindəki sovet hərbi birləşmələri silahla təmin edirdilər, yoxsa onlar azərbaycanlıları hansı silahla qətlə yetirərdilər? Separatçıların əllərində ”Kalaşnikov” avtomatları olduğu halda azərbaycanlıların əlində köhnə ov tüfəngləri var idi. SSRİ dağıldıqdan sonra isə separatçılara dəstək




Elxan Şahinoğlu

Rusiyanın hərbi birləşmələrindən gəldi. Elə Xocalı soyqırımının planlanmasında və həyata keçirilməsində ən böyük rolu elə həmin Rusiya hərbi birləşməsi oynadı”.

**Bu mənada E.Şahinoğlu bildirdi ki, biz nə vaxtsa yenidən Rusiya qoşunlarının bölgədə yerləşdirilməsinə razılaşsaq, gərək onda birdəfəlik Qarabağdan imtina edək:** “Günü bu gün də Rusiyanın harda hərbi birləşməsi varsa, orda separatizm var və ölkələrin ərazi bütövlüyü məsələsi sual altındadır. Abxaziya, Cənubi Osetiya və Dnestr bölgələri buna əyani sübutdur. Rəsmi Bakı Kremlə isti münasibətlərə çalışsa da, Rusiya hərbi birləşmələrinin Dağlıq Qarabağda yerləşdirilməsinə razı olmaz. Elə bunun nəticəsidir ki, Azərbaycan prezidenti İlham Əliyev Rusiyanın Azərbaycandakı sonuncu hərbi bazası - Qəbələ RLS-in də boşaldılmasına nail oldu. Halbuki Rusiya prezidenti və müdafiə naziriliyi RLS-lə bağlı müqavilənin uzanmasına çalışırdılar. Ancaq İlham Əliyev buna getmədi. Çünki Azərbaycan prezidenti də Rusiya hərbi bazalarının dağıdıcı rolundan xəbərdardır və nə vaxtsa Qəbələdəki hərbi bazaya görə başımız ağrıya bilərdi. Əlbəttə, Dağlıq Qarabağ münaqişəsinin hansısa mərhələsində bölgəyə sülhməramlı qüvvələrin yerləşdirilməsi məsələsi aktuallaşacaq. Ancaq rusiyalı əsgər və zabitlərin hətta bu ad altında bölgədə yerləşdirilməsi rəsmi Bakı tərəfindən mənfi qarşılanır. Təsadüfi deyil ki, bunun qarşısının alınması üçün rəsmi Bakı maraqlı bir formul təklif edib: Sülhməramlı qüvvələrin tərkibində həmsədr dövlətlərin qoşunları iştirak etməməlidirlər. Fransa və ABŞ hərbi birləşmələrindən bizə təhlükə olmaz. Ancaq Azərbaycan hakimiyyəti Rusiya hərbi birləşmələrini bölgəyə yaxın buraxmamaq üçün ABŞ və Fransanı qurban vermək məcburiyyətində qalıb”.

Yaxın perspektivdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) məsuliyyət zonasında geosiyasi vəziyyət kəskinləşəcək. ANS-in məlumatına görə, bu barədə Rusiya mətbuatı KTMT katibliyinin yeni başa çatmış qapalı iclasının iştirakçıları ilə söhbətdən sonra bu nəticəyə gəlib.

KTMT-nin məsuliyyət zonasına Rusiya, Belarus, Mərkəzi Asiya və Ermənistan daxil olduğunu qeyd edən KİV-lər Əfqanıstan, Baltikyanı ölkələr və Polşadan gələ biləcək potensial təhlükələrdən bəhs edirlər. Erməni mətbuatı da məsələyə diqqət yetirir və Ermənistanla bağlı məsələnin bir qədər ümumi rakursdan fərqləndiyini vurğulayır. Ermənistanın qonşularının - Türkiyə və Azərbaycanın Rusiya ilə müttəfiq olduğunu vurğulayan İrvan KİV-ləri KTMT qüvvələrinin region üzrə əsas məqsədinin bölgəyə rus hərbçilərinin yerləşdirilməsi olduğunu vurğulayır. “Məsələ bundadır ki, bu blok əslində tamamilə Rusiya hərbi təşkilatıdır, maraqları başqa üzv ölkələrin maraqları ilə üst-üstə düşmür. Bu ölkələrə təhlükə yaranarsa, KTMT qarışmayacaq. Bunu blokun baş katibi bildirib. Bunun əvəzində Ermənistan - Azərbaycan sərhədinə ”sülhməramlılar”ın yerləşdirilməsi məsələsi ciddi müzakirə edilir”,- deyə erməni portalı “Lragir” vurğulayır.

Bu məlumat onu göstərir ki, Jirinovskinin anonsu real təhlükədən xəbər verir.

❑ **Cavid TURAN**



# Qarabağ erməniləri ilə bağlı "Peşmanlıq qanunu" - kim nə deyir...

## Ərəstun Oruclu: "Azərbaycan tərəfinə keçən hərbi, yaxud mülki şəxslərlə bağlı düzgün yanaşmalar ortaya qoyulmalıdır"

## Fazil Mustafa: "Birinci növbədə Qarabağ ermənilərini etdikləri əməllərə görə peşman etməliyik"

**Silahını atıb Azərbaycan tərəfə keçən və könüllü təslim olan erməni əsgərin ətrafında baş verənlər yeni situasiya yaradıb. Elə Azərbaycan ermənisi olan əsgərin etiraflarından da belə görünür ki, düşmən ordusunda məcburi şəkildə ölümə göndərilən erməni gənclər arasında ölkəmizə keçmək istəyənlər çoxdur, onların yolunu açmaq üçünsə, konkret addımlara ehtiyac var.**

**Tanınmış politoloq Ərəstun Oruclu** müzakirələrə səbəb olan bir mövqe sərgiləyib. Müsavat.com xəbər verir ki, politoloq özünün facebook səhifəsində yazıb: "Azərbaycan tərəfə keçmiş erməni əsgər Andranik Qriqoryanla bağlı ölkə telekanalları ən savadsız təcrübə və ənənələrini ortaya qoydular. Əvvələ, Qriqoryanın telekanallarda əsir kimi təqdim edilməsi nə hüquqi, nə də təbliğat baxımından düzgün deyil. İkincisi, belə yanaşma bizim maraqlarımıza ziddir. Qriqoryan özü etiraf elədi ki, erməni silahlı qüvvələrində onun durumunda olan xeyli digər əsgərlər də var və belə olan halda onun görüntüləri altında "əsir" sözünü yazmaq heç bir məntiqlə izah edilən deyil. Bununla erməni təbliğatına rəvac verilir ki, Qriqoryanın qaçışını təkrar etmək istəyənləri bu hərəkətdən çəkindirmək üçün belə yanlışlıqlardan istifadə eləsin. Hüquqi baxımdan "əsir" statusu döyüş zamanı qarşı tərəfdən tərk-silah edilərək diri götürülmüş və ya konkret hərbi situasiyada həyatını xilas etmək məqsədilə təslim olmuş hərbçiyə şamil edilə bilər, Qriqoryan isə növbə çəkdiyi postu atıb, ağ bayraq qaldırıb və könüllü olaraq Azərbaycan tərəfə keçib. Belə hərbçiyə rus hərbi hüququnda "perebejçik" və ya "dezertir" deyilir ki, bu da tamamilə fərqli hüquqi statusdur. Qısası, istənilən müharibənin çox önəmli taktiki tərəflərindən biri də informasiya müharibəsidir ki, bunu da aparmaq üçün heç olmazsa bir azca ağıllı olmaq adətən mane olmur".

**Ə.Oruclunun bu mövqeyi Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbərin də diqqətini cəlb edib. MSDM rəhbəri səsləndirdiyi mövqeyi təqdir edərək, xüsusi təkliflə çıxış edib:** "Mənə, könüllü surətdə bizim tərəfə keçənlər üçün, xüsusən Qarabağ erməniləri üçün "Peşmanlıq qanunu" qəbul edilməli və geniş təbliğ olunmalıdır". İsa Qəmbərin haqqında söz açdığı "Peşmanlıq yasası" Türkiyədə geniş tətbiq olunur və terrorçu PKK təşkilatının sıralarından könüllü olaraq qaçıb, dövlətə sığınanları himayəsini, cəzalarının, yaxud da cəzasızlıqlarının dərəcəsini müəyyənləşdirir. Məhz bu qanunun tətbiqindən sonra PKK sıralarından minlərlə gənc qaçaraq, dövlətə sığınma şansı əldə edib.

Qeyd edək ki, qonşu Gürcüstanın, həmçinin Ukraynanın parlamentləri işğal olunmuş ərazilərlə bağlı qanun qəbul etsə də, Azərbaycanda hələlik bu barədə müraciətlər cavabsız qalıb. Deputat Qənirə Paşayeva dəfələrlə parlamentdə bununla bağlı məsələ qaldırıb. Son hadisələr bu istiqamətdə addımları zəruri edir.

**Ə.Oruclu mövzu ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, təkcə "Peşmanlıq qanunu" deyil, ümumiyyətlə, Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı qanunun qəbuluna ehtiyac var:** "Birinci mövcud statusun leqal şəkildə əks olunması, qanunda göstərilməsi lazımdır. Qeyd olunmalıdır ki, Azərbaycan üçün bugünkü işğal nə deməkdir. Hətta bu qanunda Azərbaycanın bununla bağlı siyasəti öz əksini tapmalıdır və bu bu kimi hallarda, deyək ki, Azərbaycan tərəfinə keçən hərbi, yaxud mülki şəxslərlə bağlı düzgün yanaşmalar ortaya qoyulmalıdır".

**Politoloq bir müddət öncə ABŞ mətbuatına müsahibə verən Azərbaycanın səfiri E.Süleymanovun "Ermənistana yatırım qoya bilərik" məzmunlu fikirlərini də xatırlatdı:** "Səfir demişdi ki, Dağlıq Qarabağ münaqişəsi həll olunarsa, İrəvanın siyasəti düzgün olarsa, hətta Ermənistana yatırım da siyasəti də çoxşaxəli olmalıdır. Yəni təkcə İsa bəyin göstərdiyi həmin qanun deyil, bir çox başqa qanunlar da qəbul olunmalıdır. Məsələn, təkcə əlinə silah alıb Azərbaycana qarşı döyüşən, yaxud işğalçı Ermənistan silahlı qüvvələrində xidmət edən şəxslər yox, hətta mülki şəxslər haqqında da müvafiq qanunlar qəbul olunmalı və ermənilərin diqqətinə çatdırılmalıdır. Yəni onlar görsünlər ki, Azərbaycan tərəf nə təklif edir. Yalnız "Dağlıq Qarabağ bizim işğal olunmuş ərazimizdir, onsuz da, o torpaqları qaytaracağıq" demək, burda əsasən hərbi yola işarə etmək uğur gətirən taktika, strategiya, siyasət deyil. Hər halda, uğur gətirən olsaydı, ötən 25 ildə az da olsa, irəliləyiş olardı, lakin bunu görmədik. Ona görə də qoya bilərik. Ancaq əvvəllər bunu deyəndə bizi topa tuturdular, hökumətə yaxın adamlar tərəfindən müxtəlif damğalar vururdular. Lakin birdən-birə belə situasiya yarandı. Mən heç vaxt bunun əleyhinə olmamışam, hətta ölkədə həmin fikri səsləndirənlərdən biri olmuşam. Dağlıq Qarabağ erməniləri ilə çoxşaxəli əlaqələr qurulmalıdır. O cümlədən iqtisadi əlaqələr, müəyyən sosial proqramlar həyata keçirilməlidir. Məsələn, Gürcüstan uzun müddət Abxaziya ilə gərgin münaqişə vəziyyətində olmasına baxmayaraq, iki mühüm məqamla diqqət çəkirdi. Birincisi, Abxaziyanın separatçı rejiminin, yaxud deyək ki, Rusiyanın nəzarətində olan Gürcüstan ərazilərində gürcülər yaşamaqda davam edirdi. Bu gürcülər üçün Qoru çayı üzərində "sərhəd keçid məntəqəsi"ndə sadələşdirilmiş keçid təmin olunmuşdu. Mən 2006-cı ildə bunun canlı şahidi olmuşam. Digər tərəfdən, Abxaziya sakinlərinin Gürcüstanın klinikalarında pulsuz müalicəsi həyata keçirilirdi və minlərlə insan bundan yararlanırdı. Bunun özü də həmin çoxşaxəli siyasətin tərkib hissəsidir. Belə siyasətdə ucuz, bayağı, primitiv, səviyyəsiz reklama ehtiyac yoxdur. Bu zaman ölkənin daxilindəki reytinq, ya piar kənara qoyulmalıdır. Ümummilli məsələlərdə spikulyasiya yolverilməzdir".

**Deputat Fazil Mustafa isə fərqli fikirdədir:** "Birinci növbədə Qarabağ ermənilərini etdikləri əməllərə görə peşman etməliyik ki, sonra belə bir qanuna da zərurət yaransın. Hələ ki onlar peşman olmuş obrazda görünmürlər, işğalçıları təmizləyəndən sonra bizim ərazimizdə və suverenliyimiz çərçivəsində yaşamaq istəyən ermənilərin keçmişdə törətdikləri əməllərə görə belə bir qanundan istifadəsini düşünmək olar".

❑ **E.PAŞASOY**

# İsrail Azərbaycanı yəhudilər üçün təhlükəli 40 ölkənin siyahısına salıb

## Arzu Nağıyev: "Cənubi Qafqazdakı situasiya müəyyən mənada İsraili öz vətəndaşları ilə bağlı xəbərdarlıq etməyə vadar edir"



**Xəbər verdiyimiz kimi, İsrail "Terrorla Mübarizə Ofisi" ölkə vətəndaşlarına bir sıra xarici ölkələrə səfər etməməklə bağlı xəbərdarlıq edib. Xəbərdarlıq siyahısında 40 ölkənin, o cümlədən Azərbaycan və Türkiyənin də adı var. Açıqlanan xəbərdarlıqda qeyd olunur ki, "yaxınlaşan bayramlar və tətil günləri ilə əlaqədar xarici ölkələrə getməyə hazırlaşan İsrail vətəndaşlarına 40 bölgəyə səfər etməməklə bağlı xəbərdarlıq edilib".**

Açıqlamada İsrail vətəndaşlarına və dünyanın fərqli ölkələrində yaşayan yəhudilərə yönəlik hücumların artdığı qeyd olunur. Eyni zamanda xəbərdarlıqda sözügedən bölgələrdə olan israillilərin dərhal həmin əraziləri tərk etmələri tövsiyə olunur. Bundan başqa, İran və "Hizbullah" təhdidi də açıq şəkildə qeyd olunur. Sitat: "İran və "Hizbullah"ın liderliyində ki beynəlxalq terror hələ də dünyadakı İsrail hədəflərini və yəhudiləri təhdid edir".

Açıqlamada həmçinin bu xəbərdarlıqla bağlı ciddi "dəlillərin olduğu" qeyd edilir. Siyahıya salınan ölkələr isə Türkiyə, Suriya, İraq, İran, Livan, Yəmən, Səudiyyə Ərəbistanı, Əfqanıstan, Liviya, Sudan, Somali, Burkina Faso, İndoneziya, Fil Dişi Sahili, Malayziya, Mali, Mavritaniya, Misir, Pakistan, Toqo, Əlcəzair, Cibuti, Tunis, Bəhreyn, Filippinin cənubu, İordaniya, Küveyt, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan, Mərakeş, Oman, Taylandın cənubu, Keniya, Nigeriya, Hindistanın cənubu, Seneqalın şərqi, Nigerin şimalı, Çeçenistan, Kəşmirdir.

Qeyd edək ki, İsrail dövlətinin müvafiq qurumları müəyyən vaxtlarda bu cür siyahılar elan edir. Daha əvvəl də bu cür siyahılarda Azərbaycanın da adı olub. Ancaq Azərbaycanda bu günə qədər hansısa İsrail vətəndaşına və ya yəhudiyə hücum baş verməyib və yəhudilərə ən normal münasibətin sərgiləndiyi ölkələrdən biri də Azərbaycandır. Bu faktı yəhudilər və İsrail rəsmiləri dəfələrlə təsdiqləyiblər. İndiki vəziyyətdə bir neçə aydan sonra Avropa Oyunları kimi geniş miqyaslı idman oyunlarına hazırlaşan


Arzu Nağıyev

Azərbaycan hökuməti üçün bu cür xəbərdarlıqlar narahatlıq yaradır, çünki bu cür oyunlar ilk növbədə ölkənin daha çox tanıdılması, turist cəlb olunması baxımından önəm daşıyır. Xəbərdarlıq isə istər-istəməz bu məsələyə mənfi təsir edir.

**Yeri gəlmişkən, artıq Azərbaycan hökuməti də ölkənin adının təhlükəlilər siyahısına salınmasına münasibət bildirib. Xarici İşlər Nazirliyinin sözçüsü Hikmət Hacıyev Azərbaycanda xaricilər üçün təhlükə olmadığını bildirib. Sitat:** "Öz vətəndaşlarının təhlükəsizliyinin qeydinə qalmaq üzrə tədbirlər hər bir dövlətin suveren qərarıdır. Azərbaycanın hüquq-mühafizə və təhlükəsizlik orqanlarının yüksək peşəkarlıqla həyata keçirdiyi davamlı tədbirlər nəticəsində vətəndaşlarımızın və ölkəmizdə olan əcnəbi qonaqların təhlükəsizliyi təmin olunur və Azərbaycanda təhlükəsiz və sabit mühit hökm sürür".

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev deyir ki, İsrail hökumətində 4-5 kateqoriya siyahı olur. Birinci kateqoriya birmənalı səfərin qadağan olunduğu ölkələrdir. İkinci siyahıda olan ölkələrə müəyyən kateqoriyadan olan vətəndaşlar gedə bilər. Üçüncü kateqoriyaya dindar vətəndaşların gedə bilmədiyi ölkələr və sair kimi qadağalar olur. Bundan başqa, ekspertin fikrincə, daha bir siyahıda isə ehtiyatlı olmaq tövsiyəsi verilən ölkələrdir:** "Mən düşünürəm ki, bu gün Cənubi Qafqazdakı situasiya müəyyən mənada İsrailin öz vətəndaşları ilə bağlı xəbərdarlıq verməyə vadar edir. Bunlardan birincisi Dağlıq Qarabağ münaqişəsi, ikinci faktor isə İranla qonşuluq faktorudur.

İsrail Azərbaycanın strateji tərəfdaşıdır. İsrail hakimiyyət orqanları qəti şəkildə Azərbaycana səfər etməməyi tövsiyə edə bilməz. Çünki o vətəndaşlar arasında Azərbaycanda biznes fəaliyyəti quran, iş görən və başqa-başqa kateqoriyalardan çoxlu sayda insanlar var. Burda əsas məqam hansı kontingentlə təmas qurmaq məsələsidir".

**Ekspertin fikrincə, bu xəbərdarlıq Avropa Oyunları ilə bağlı deyil, daha çox regionda artan narahatlıqlarla bağlıdır:** "Təbii ki, Avropa Oyunları zamanı bura gələn idmançıların təhlükəsizliyini yalnız Azərbaycanın təhlükəsizlik orqanları deyil, eyni zamanda həmin ölkələrin öz xüsusi xidmətləri də müəyyən səviyyədə qorumağa çalışır. Bura göndərilənlərin kimliyini də bilirlər. Məlumdur ki, yazqabağı Cənubi Qafqazda vəziyyət həmişə gərginləşir. Terror təhdidləri artır. İstər şimaldan Rusiya istiqamətindən, istərsə də cənubdan. Həm də unutmaq lazım deyil ki, Ermənistan açıq şəkildə terror təhdidləri edir".

❑ **KƏNAN**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 63 (6091) 27 mart 2015



# Cəbhə xəttindəki döyüşlər total savaşa keçə bilərmi?

## Status-kvo hələ ki ən çox vasitəçi dövlətləri qane edir; ABŞ İsrail kimi Ermənistanı da işğala son qoymağa çağıracaqmı? Moskvalı politoloq: "Rusiya imtina etsə, Azərbaycan silahları heç bir problemsiz Kremlin dünya bazarındakı rəqiblərindən alacaq..."

**Novruz ərəfəsi Qarabağ münaqişəsi zonasında qarşı duran tərəflər arasında növbəti eskalasiyanın özünü göstərməsi ilə müşahidə olundu. Budəfəki qarşıdurma zamanı erməni tərəfi çoxsaylı canlı itkilər verdi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, 20-dək düşmən əsgəri sıradan çıxarıldı, xeylisi yaralandı - erməni tərəfi ölüm faktlarının hamısını etiraf eləməsə də.**

Ermənistanın müdafiə naziri Seyran Ohanyanın təcili şəkildə işğal altındakı Dağlıq Qarabağa, Xankəndinə gələrək yaralı erməni əsgərlərinə baş çəkməsi, martın 22-də erməni hərbi qulluqçusu Andranik Qriqoryanın könüllü şəkildə Azərbaycan tərəfə keçməsi və bu tərəfdə verdiyi ilginc açıqlamalar *("Mənasız müharibədə ölmək istəmirəm", "Əsgər çatışmazlığı üzündən postlara mülki şəxslər yerləşdirilir", "Ölənlərin sayı gizlədilir" və s.)* düşmənin ciddi zərbə aldığına şübhə yeri qoymur.

Son insident bir daha Dağlıq Qarabağ məsələsində status-kvonun saxlanmasının nə dərəcədə qorxulu olduğunu, eskalasiyanın istənilən an genişmiqyaslı müharibəyə keçmə riskinin böyük olduğunu göstərdi. Əfsus ki, münaqişənin dinc yolla həllinə məsul olan vasitəçi dövlətlər - Rusiya, ABŞ və Fransa konfliktin hərbi fazaya adlamasını önləmək üçün etibarlı mexanizm ortaya qoya bilmir. Etibarlı mexanizm isə işğalçıya, nəhayət, öz yerini göstərməkdən keçir.

*****

Çox maraqlıdır ki, bu arada ATƏT-in Minsk Qrupunun üç həmsədr ölkəsindən biri kimi ABŞ İsraili Fələstin torpaqlarının 50 illik işğalına son qoymağa çağırıb. Ağ Ev administrasiyasının rəhbəri Denis Makdonou bu xüsusda bildirib ki, İsrail başqa bir xalq üzərində silah gücünə hökmranlıq edə bilməz. Ağ Ev rəsmisi onu da bəyan edib ki, sülh anlaşması İsraili daha güclü edə bilər. Amrtika prezidenti Barak Obama isə bəyan edib ki, İsrail-Fələstin bölgəsində sabitliyin əldə edilməsinin yeganə yolu Fələstin dövlətinin yaradılmasıdır.

Çox yaxşı. Ancaq yaxşı olmazdımı ki, Vaşinqton Güney Qafqazın "İsraili"nə - işğalçı Ermənistana da arada göz ağardaydı, Azərbaycanla sülh sazişinin ilk növbədə bloakadadan əziyyət çəkən Ermənistana, onun xalqına və Dağlıq Qarabağdakı Azərbaycan vətəndaşları olan ermənilərə böyük fayda gətirəcəyini anladaydı?! Axı istənilən müharibənin, işğalın axırı sülhdür...

*****

Nə qədər ki, belə bir sülh üfüqdə görünmür, əraziləri işğal altında olan Azərbaycan təbii ki, öz hərbi büdcəsini artırmaqda, silahlı qüvvələrini və hərbi parkını daha müasir silah-sursatla modernləşdirməkdə davam edəcək - təcavüzkar Ermənistanı bu, qıcıqlandırıb narahat eləsə də. Azərbaycan isə İrəvanın narazılığına rəğmən, bəllidir ki, silah və hərbi texnikanı həm də Ermənistanın strateji müttəfiqi Rusiyadan alır.

**Rusiyalı politoloq Aleksandr Krılov Bakı ilə Moskva arasında silah ticarəti ilə əlaqədar erməni tərəfinin narazılığını əbəs sayır. Erməni KİV-ə müsahibəsində ekspert bununla bağlı deyib:** "Aydındır ki, Rusiya və Ermənistanın Türkiyə və Azərbaycanla, Ukrayna və Gürcüstanla tamamilə fərqli münasibətləri, Avropa İttifaqı ilə tərəfdaşlıq perspektivlərinə fərqli yanaşmaları var və s. Azərbaycan işğalçı dövlət kimi tanınmayıb və ona digər ölkələrdən silah satışı ilə əlaqədar heç bir məhdudiyyət mövcud deyil. Üstəgəl, bu istiqamətdə erməni diplomatiyasının hər hansı fəallığı müşahidə edilmir.




Şübhə yox ki, Rusiyanın Azərbaycana silah verməsi Rusiya-Ermənistan münasibətlərində ən ağrılı problemlərdən biridir. Ermənistanda bu, olduqca emosional qarşılanır - hansı ki, təmas xəttindəki gərginliyin daima artması fonunda anlaşılandır. Odur ki, Rusiya tərəfinin bütün arqumentləri Ermənistanın nə hakimiyyəti, nə də cəmiyyəti tərəfindən qəbul edilir".

**Ekspert bu arqumentlər arasında ən mühümləri kimi aşağıdakıları qeyd edir:** "Əgər Moskva Azərbaycanla hərbi-texnika əməkdaşlıqdan imtina eləsə, regiona təsirinin əhəmiyyətli hissəsini itirəcək. Azərbaycan heç bir problemsiz bütün özünə lazım olan silah növlərini dünya bazarında Rusiyanın rəqiblərindən alacaq. Moskva Bakı ilə anlaşmadan imtina etməklə bir çox milyardlardan məhrum olacaq ki, bu da onun Ermənistana hərbi-texniki dəstək verməsi kontekstində imkanlarını məhdudlaşdırır. Nəticədə məhz Ermənistanın mövqeləri mürəkkəbləşir".

**Politoloq Minsk Qrupu çərçivəsində aparılan danışıqların dalana dirənməsinə də toxunub. Onun sözlərinə görə, bütün növ yeni formatlar çərçivəsində yeni görüşlər və danışıqların effekti *(əgər onlar baş tutacaqsa)*, elə əvvəlki effektdə olacaq:** "Onların əsas nəticəsi - tərəflərin sülh nizamlanması ilə bağlı danışıqlar prosesinin davamı haqda razılığa gəlməsi olacaq. Situasiyanın sonrakı inkişaf perspektivləri isə tam başqa faktorlar diktə edəcək. Söhbət ilk növbədə regionda formalaşacaq hərbi-siyasi qüvvələr nisbətindən gedir".

*****

**"Təəssüf ki, yaxın zamanlarda Dağlıq Qarabağ probleminin nizamlanması prosesində ciddi dəyişiklik gözlənilmir". Bunu isə erməni politoloq, İrəvandakı Qafqaz İnstitutunun siyasi tədqiqatlar şöbəsinin rəhbəri Sergey Minasyan deyir.**

**Onun sözlərinə görə, Minsk Qrupu həmsədrləri "böyük müharibə"dın qaçmaq üçün bütün siyasi və qeyri-siyasi rıçaqlardan istifadə edirlər.** "Ancaq situasiyanı Ukraynadakı, Suriyadakı və ya dünyanın başqa qaynar nöqtəsi ilə müqayisə edəndə, o zaman əlbəttə ki, ABŞ, Avropa Birliyi və Rusiya üçün Qarabağ konflikti zonasındakı hadisələr elə də birinci dərəcəli əhəmiyyət daşımır..."

*****

Bu arada məlum olub ki, Ermənistan hökuməti Gümrü şəhərindəki 102 saylı Rusiya hərbi bazasına növbəti dəfə əlavə ərazi ayırmaq niyyətindədir. Bu barədə "Joxovurd" nəşri xəbər yayıb. Qəzetə bəlli olub ki, müvafiq anlaşma layihəsi artıq hökumətin növbəti iclasının gündəliyinə salınıb.

Həmin sənədə görə, Rusiya tərəfinə Gümrü şəhərinin Lalayan küçəsindəki 9 saylı hərbi kvartala bitişik ərazilər veriləcək. O sırada söhbət həmçinin, rus kilsəsinin də yerləşdiyi torpaq sahəsi və tikililərlə birgə ona bitişik ərazilərdən gedir. Yəni bir daha aydın olur ki, Rusiya Azərbaycana dünya qiymətlərinə silah satmaqla yanaşı, öz forpostu Ermənistanı da əsla unutmur, orada hərbi mövcudluğunu gücləndirməkdə davam edir.

Bu yerdə xatırladaq ki, şimal qonşumuz 2015-ci ilin sonunadək Gümrüdəki hərbi bazasını müstəsna olaraq kontraktçılardan *(muzdlulardan)* komplektləşdirməyi planlaşdırır.

# Erməni ordusunda növbəti itki

## Təmas xəttindəki təxribat zamanı yaralanmış düşmən əsgərlərindən daha biri keçinib...



**Martın 19-da qoşunların təmas xəttində təxribat törədərkən yaralanmış Ermənistan ordusunun əsgəri Samvel Sasuni Hakopyan hospitalda ölüb (anspress). 20 yaşlı əsgər Xankəndi hospitalında keçinib.**

Qeyd edək ki, martın 19-da cəbhədə baş vermiş döyüş toqquşması nəticəsində müdafiənin ön xəttində yerləşən əsgər və zabitlərimiz düşmənə ağır zərbə vuraraq 20-dək hərbi qulluqçusunu məhv edib və yaralamışdı.

Ermənistanın hərbi və siyasi rəhbərliyi, ələlxüsus Müdafiə Nazirliyi isə cəbhədə ölən hərbçilərin analarının ölkə rəhbərliyinə qarşı qəzəbinin artmasından ehtiyat edərək uğursuz hərbi əməliyyatları və itkilərinin sayı barədə məlumatları qəsdən gizlədir, xalqın fikrini yayındırmağa çalışırlar.

Əlavə edək ki, ötən həftə Silahlı Qüvvələrimizin tank bölmələrinin heyətləri qarşısında çıxış edən müdafiə naziri general-polkovnik Zakir Həsənov ermənilərin son vaxtlar cəbhədə vəziyyəti gərginləşdirmək məqsədilə törətdikləri təxribatlara cavab olaraq bildirib ki, düşmən birmənalı olaraq anlamalıdır ki, özgə torpağına soxulub və sağ-salamat qalmasının yeganə yolu işğal olunmuş Azərbaycan ərazilərini tezliklə və birdəfəlik tərk etməsidir. "Əks təqdirdə, düşmənin cəbhədəki hər bir hərəkətinin qarşısı hərbi qulluqçularımız tərəfindən daha amansız alınacaq, vurulacaq zərbə isə ölümcül olacaq".

Erməni tərəfi yəqin ki, aldığı zərbənin əvəzini çıxmaq üçün bir müddət sonra təzədən revanş götürməyə, təmas xəttində təxribat törətməyə çalışacaq. Ancaq əbəs yerə. Azərbaycan ordusu daha əvvəlki deyil və düşmənin layiqli cavabını verməyə hər an hazırdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 63 (6091) 27 mart 2015



# Yay vaxtına keçidin faydası çoxdur, yoxsa ziyanı?

**Natiq Cəfərli:** "Azərbaycan kiçik ölkə olduğundan, bu, iqtisadiyyata o qədər də xeyir gətirmir, belə praktikadan imtina etməyin vaxtıdır"

**Adil Qeybulla:** "Saatların çəkilməsi insanların bioritmini pozur, sinir sisteminə, adaptasiya mexanizminə mənfi təsir göstərir"

**Dəyanət Rzayev:** "Ümumilikdə fəsadlar o qədər də ciddi deyil"

**Martın 29-da Azərbaycanda saatlar növbəti dəfə 1 saat irəli çəkilməklə ölkədə yay vaxtına keçiləcək. Nazirlər Kabinetinin "Azərbaycan ərazisində yay vaxtının tətbiq edilməsi haqqında" 17 mart 1997-ci il tarixli Qərarına əsasən, hər il mart ayının son bazar günü, saat 4:00-da əqrəblərin bir saat qabağa çəkilməsi ilə yay vaxtına keçilir. Hər il oktyabr ayının son bazar günü, saat 5:00-da isə əqrəblərin bir saat geri çəkilməsi ilə yay vaxtı ləğv edilir.**

Bəs bu dəyişiklik ölkə iqtisadiyyatına nə qazandırır? Yay vaxtına keçidin insan səhhətinə ziyanı necə, varmı?

**İqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, Azərbaycan kiçik ölkə olduğundan yay vaxtına keçid iqtisadiyyata o qədər də xeyir gətirmir: "Bu, gün işığına hesablanmış bir dəyişiklikdir və yüz illik bir tarixi var. Azərbaycanda yay-qış vaxtının təyin edilməsi müstəqillik illərindən tətbiq olunmağa başladı. Ancaq artıq əksər ölkələr bu təcrübədən imtina edib. Çünki vaxt dəyişikliyinin iqtisadiyyata faydalı olduğu iddia edilsə də, insan səhhətinə zərəri var. Bu barədə çox ciddi araşdırmalar aparılıb və insan psixologiyasına ziyan vurduğu təsdiqlənib. Saat dəyişikliyinin iqtisadiyyata müəyyən faydaları olduğu deyilir. Yay və qış vaxtına keçiddə əsas məqsəd elektrik enerjisinə qənaətdir. Ancaq bu təcrübə əsasən özünü böyük ölkələrdə doğruldur. Məsələn, Türkiyədə hesablanıb ki, bu qərar hər il 500 milyon dollar dəyərində elektrik enerjisinə qənaət edilməsinə imkan yaradır. Türkiyənin ərazisi və əhalisi Azərbaycandan təxminən 10 dəfə çoxdur. O ölkədə 500 milyon dollardan söhbət gedirsə, Azərbaycan üçün bu daha kiçik rəqəmlə ifadə olunur. Bizim üçün bu qərarın iqtisadi faydası o qədər də ciddi deyil və düşünürəm ki, belə praktikadan imtina etməyin vaxtıdır".

**Yay vaxtına keçidin insan səhhətinə təsirinə gəlincə, tibb elmləri doktoru, professor Adil Qeybulla da dedi ki, artıq bir çox ölkələrdə bu qərar ləğv edilib:** "Rusiya artıq neçə ildir ki, bundan imtina edib. Bu qərarın iqtisadi baxımdan heç bir səmərəsi olmadığından və əhalinin rahatlığını pozduğundan Rusiyada məsələ müzakirə olunub və imtina olunub. Azərbaycan niyə bundan imtina eləmir və nə üçün davam etdirir, məlum deyil. Yay vaxtına keçidin heç bir iqtisadi səmərəsinin olmadığı sübuta yetirilib. İqtisadiyyatı inkişaf etmiş ölkələrdə bu saat dəyişmələrinə heç bir önəm verilmir. İkinci bir məsələ odur ki, insanların uzun müddət bioritmləri formalaşır. Məsələn, hər gün səhər saat 8-də yuxudan qalxırdılarsa, artıq bir saat tez və ya gec qalxmalı olacaqlar. Beləliklə, bu bioritm pozulur. Bu, insanların sinir sisteminə, adaptasiya mexanizminə təsir göstərir. Bu da orqanizmdə müəyyən fəsadlara yol açır. Əgər bu saat dəyişmələrindən imtina edilməyəcəksə, yaxşı olar ki, insanlara müəyyən məsləhətlər versinlər. İnsanlar bir müddət öncədən başlayaraq tədricən vaxtlarını irəli çəksinlər və yeni saata öyrəşsinlər. Əks halda, bu, problemlər yaradır. Çünki əhalinin əksəriyyəti onsuz da gərgin vəziyyətdədir. Bu cür bir dəyişiklik də müsbət heç nə vəd etmir".

**Psixoloq Dəyanət Rzayev isə bildirdi ki, insanlar üçün bu çətin olsa da, müəyyən müddətdən sonra tam adaptasiya olurlar:** "Bu, insan psixologiyasına təbii ki, təsir göstərir, insanların gündəlik rejimi pozulur. Ancaq tədricən, təxminən bir həftəyə yeni vaxta adaptasiya gerçəkləşir. Sinir sistemi həssas olan insanlar üçün bu daha çətin olur, ancaq onlar da müəyyən müddətdən sonra adaptasiya olurlar. Ümumilikdə götürsək bu fəsadlar o qədər də ciddi deyil".

❑ **Nərgiz LİFTİYEVA**



# Bakı yollarında bayram tıxacları

## Sistemsiz təmir işləri sürücülərin əsəbi ilə necə oynayır?

**Novruz tətilindən Bakıya qayıdan şəhər sakinlərini bağlı yollar, təmirə qapadılmış körpülər qarşıladı. Eyni anda bir neçə küçənin bağlı olması sürücülərin durumunu da pisləşdirib. Hərəkət etmək imkanları minimuma endiyi üçün tıxaclar da artıb. Öncə qapadılan küçələrin siyahısına diqqət yetirək. Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC-dən verilən məlumata görə, martın 21-dən axşam saat 23:00-dən etibarən təmir işləri ilə bağlı Heydər Əliyev prospektinin Həsənoğlu küçəsi ilə kəsişməsindən şəhər istiqamətinə, eyni zamanda Xətai prospektinin Yusif Səfərov küçəsinə çıxışı nəqliyyatın hərəkəti üçün bağlıdır.**

Martın 26-sı səhər saat 07:00-dan etibarən isə təmir işləri ilə bağlı Şəmsi Bədəlbəyli küçəsinin Rəşid Behbudov küçəsi ilə kəsişməsindən Azadlıq prospekti ilə kəsişməsinədək olan hissəsi nəqliyyatın hərəkəti üçün bağlıdır.

Asfalt örtüyünün yenilənməsi məqsədilə Novruz bayram günlərində martın 22-28-nə kimi Bakı şəhərinin Mehdi Hüseyn, Şeyx Şamil və Bünyad Sərdarov küçələrində nəqliyyat vasitələrinin hərəkəti mərhələli şəkildə məhdudlaşdırılacaq.

Bunu Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinə (NİİM) Bakı Şəhər İcra Hakimiyyətindən bildiriblər.

Sürücülərə alternativ olaraq Teymur Elçin küçəsindən istifadə etmələri tövsiyə olunur. Bakının tez-tez təmir işlərinə görə bağlanan Ziya Bünyadov prospektindəki *(Dərnəgül yolu)* körpülərdən ikisi yenidən nəqliyyatın üzünə qapadılıb.

Bundan başqa, Ziya Bünyadov prospektinin Atatürk prospekti ilə kəsişməsində və Ziya Bünyadov prospekti ilə Azadlıq prospektinin *(keçmiş Karl Marks dairəsi)* kəsişməsində yerləşən hər iki körpüdə "20 Yanvar" istiqamətindən "Koroğlu" metrostansiyasına doğru hərəkət hissəsi yenidən təmirə bağlanıb. Bir neçə gündür həmin yolötürücülərinin bağlanması səbəbindən bu ərazilərdə nəqliyyatın tıxacı yaşanır.

Qeyd edək ki, hər iki körpüdə təmir işləri elə bu yaxınlarda, yanvar ayında həyata keçirilmişdi. O zaman "Azəryolservis" ASC təmir işlərini yolötürücülərində temperatur tikişlərinin yenilənməsi ilə əlaqələndirmişdi. Bu dəfə də körpülərin üzərində yenidən qazma-qaşıma işləri aparılır...

"Yeni Müsavat" isə xatırladır ki, martın 19-da prezident İlham Əliyev ümumi istifadədə olan ölkə əhəmiyyətli avtomobil yollarının qorunması haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Nazirlər Kabineti hərəkətdə olan nəqliyyat vasitəsinin çəki və kütlə parametrlərini ölçən texniki vasitələrin ümumi istifadədə olan ölkə əhəmiyyətli avtomobil yollarında quraşdırılması nəzərdə tutulan yerlərin siyahısını, həmin texniki vasitələrin quraşdırılma müddətlərini və mərhələlərini iki ay müddətində müəyyən edib Azərbaycan prezidentinə məlumat verməli; iriqabaritli və (və ya) ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati xətalar haqqında elektron protokolun tərtib olunması və həmin inzibati xətalara dair işlər üzrə icraatın aparılması qaydasını tənzimləyən qanunun layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan prezidentinə təqdim və sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Son duruma gəlincə, aparılan təmir işləri ilə əlaqədar Bakının mərkəzində bağlanan bütün yollar yaxın 2-3 gündə açılaraq istifadəyə veriləcək. Bunu "Trend"ə Nəqliyyat Nazirliyi **"Azəryolservis" ASC-nin mətbuat katibi Pünhan Mürsəliyev** deyib.

**Onun sözlərinə görə, martın 26-sı səhər saat 07:00-dan etibarən təmir işləri ilə əlaqədar Şəmsi Bədəlbəyli küçəsinin Rəşid Behbudov küçəsi ilə kəsişməsindən Azadlıq prospekti ilə kəsişməsinədək olan hissəsi nəqliyyatın hərəkəti üçün bağlanıb:** "Hazırda həmin ərazidə köhnə asfalt-beton örtüyünün qaşınması işləri gedir. Sabahdan etibarən isə ora yeni asfalt-beton örtüyünün döşənməsinə başlanılacaq".

**Bundan əlavə, P.Mürsəliyev qeyd edib ki, martın 25-də axşam saat 23:00-dən etibarən təmir işləri ilə əlaqədar Heydər Əliyev prospektinin Həsənoğlu küçəsi ilə kəsişməsindən şəhər istiqamətinə, eyni zamanda Xətai prospektinin Yusif Səfərov küçəsinə çıxışı nəqliyyatın hərəkəti üçün bağlanıb:** "Orada da köhnə asfalt-beton örtüyü yenisi ilə əvəzlənir. Axşam saatlarınadək orada yeni örtüyün döşənməsi işləri yekunlacaq".

**"Azəryolservis"in sözçüsü bildirib ki, artıq bəzi yollarda işlər tamamlanmaq üzrədir:** "Hazırda Yusif Səfərov küçəsinin Bakı Şəhər Baş Polis İdarəsinin qarşısından Heydər Əliyev prospektinə qədər olan hissəsində son tamamlanma işləri aparılır. Burada xətlənmə işləri uzunömürlü isti və soyuq boyalardan istifadə edilməklə aparılır. Artıq bu gün saat 13-14 radələrində yolun bu hissəsi nəqliyyatın hərəkəti üçün açılacaq. Həmçinin Suraxanı rayonundakı Səttar Bəhlulzadə küçəsində təmir işləri davam etdirilir. Artıq küçə boyu yeni asfalt-beton örtüyü döşənir. Bundan əlavə, 20 Yanvar dairəsi, Bakı dairəvi yolunda təmir işləri davam edir. Dünən Süleyman Rüstəm küçəsində görülən işlər başa çatdırılıb. Hazırda orada kommunikasiya quyularının dəmir-beton plitələrinin qapaqları dəyişdirilir. Sabahdan orada da işlər yekunlaşacaq. Ümumiyyətlə, yaxın 2-3 gün ərzində Bakının mərkəzində bağlanan bütün yollarda aparılan bütün işləri tamamilə yekunlaşdırmaq fikrindəyik".

Amma ekspertlər hesab edirlər ki, bütün bunlar plansız fəaliyyətin nəticəsidir. Yolların sistemsiz şəkildə təmirə bağlanması nəqliyyatı iflic vəziyyətə salır. Çıxış yollarından biri kimi yolların gecə saatlarında təmirə bağlanması göstərilir. Baxmayaraq ki, hazırda yollar günün pik saatlarında təmirə bağlanır. Nəticədə tıxacın yaranması ilə yanaşı, yollar da tam keyfiyyətlə təmir edilə bilmir. Yolların təmiri məsələsi və onun keyfiyyət əmsalının aşağı olmasının da tıxac amilinin yaranmasına təsiri var.

❑ **Sevinc TELMANQIZI**



# İcra başçısından şəhid ailəsinə hörmətsizlik

## İki rayonun İcra hakimiyyətləri Ağsuda məskunlaşan kəlbəcərli köçkündən qisas alır...

**Ağsu rayonunda məskunlaşan şəhid və məcburi köçkün ailəsi illərdir uçuq bağçada yaşamağa məhkumdur. Nə Ağsu, nə də ailənin qeydiyyatda olduğu Kəlbəcər İcra hakimiyyətləri şəhid ailəsini evlə təmin etmir. Qanunsuzluqla bağlı bir çox instansiyalara müraciət edilsə də, nəticəsizdir.**

"Yeni Müsavat"ın əməkdaşı həmin ailənin yaşadığı bağçada olub və ailə ilə söhbətləşib.

Əslən Kəlbəcərdən olan Gözəl Məmmədova bildirib ki, həyat yoldaşı Əli Məmmədov 1992-ci ildə şəhid olub. Bundan sonra 1993-cü ildə qadın dörd uşağı ilə Ağsu şəhərindəki "Qərənfil" uşaq bağçasında məskunlaşıb. Həmin bağçada isə vəziyyət olduqca acınacaqlıdır. Bina uçuq və təmirsiz vəziyyətdədir. Məmmədovanın sözlərinə görə, aidiyyəti qurumlar bu illər ərzində ailə ilə maraqlanmayıb. İndiyədək onlara nə şəhid ailəsi, nə də məcburi köçkün kimi diqqət yetirilməyib. İllərlə yaşadıqları otaqlar nəm və su içində olub. Ailənin Ağsu və Kəlbəcər icra hakimiyyətlərinə etdikləri müraciətlər də cavabsız qalıb. Ailənin ev siyahısındakı növbəsi isə illərdir ki, gəlib çatmır. Hər dəfə siyahıda onlardan əvvəl onlarla insanın olduğu məlum olur.

"Hər yağış yağanda ev su içində olur *(ev deyəndə G.Məmmədova bağçada yerləşdikləri iki kiçik otağı nəzərdə tutur-R.R.)* Bir dəfə Ağsunun icra başçısı Ənvər Seyidəliyev də gəlib vəziyyətimizi gördü. Ancaq heç bir xeyri olmadı. Biz otaqları bu yaxınlarda bir az təmir etdik ki, heç olmasa, yaşamaq mümkün olsun", - deyə qadın qeyd edib.

**Yaxınları isə bildirib ki, icra başçısı Ənvər Seyidəliyev bu ailəni qəsdən evlə təmin etməyəcəyini deyib:** "Eşitmişik ki, o, ailəni burada, bu bağçada çürüdəcəyini, evlə təmin etməyəcəyini bildirib. Səbəb kimi isə ailənin müxalif mövqeli olmasını göstərib. Ailəyə heç Kəlbəcər İcra Hakimiyyəti də yaxın durmur. Bu, onun, o da digərinin boynuna atır məsələni".



Həmin bağçada şəhid ailəsi ilə birgə iki ailə də yaşayır. Ailələrdən birinin başçısı Asəf Quliyev də illərdir ki, mənzillə təmin olunacaqlarını gözlədiyini vurğulayıb.

**Yada salaq ki, bir müddət əvvəl Qarabağ Azadlıq Təşkilatı da həmin şəhid ailəsinin problemini mətbuata çıxararaq dövlət başçısına müraciət etmişdi. Müraciətdə köçkün və şəhidin həyat yoldaşı olmuş qadına qarşı edilən haqsızlıqlar sadalanaraq kömək istənilmişdi.**

"Gözəl Məmmədova rayonda fəal ictimai iş aparır, ədalətsizliklərə və nöqsanlara qarşı həmişə vicdanlı vətəndaş mövqeyi tutur, xüsusilə də vətənpərvərlik işinin gücləndirilməsi istiqamətində əlindən gələni etməyə çalışır, bu yöndə yol verilən nöqsanların aradan qaldırılması üçün təşəbbüslər edir. Çox təəssüf ki, rayon icra hakimiyyətinin rəhbərliyi qərəzli mövqe tutur. Hətta mənəviyyatsızlığın o həddinə çatırlar ki, onun heysiyyəti ilə oynayır, təhqir edir, həyat yoldaşının şəhidliyini, özünün məcburi köçkünlüyünü lağa qoymaqdan belə çəkinmirlər. Haqsızlıq o həddə çatıb ki, Gözəl Məmmədovanın məskunlaşdığı uşaq bağçasında rayon icra hakimiyyəti tərəfindən təmir işləri aparılır, orada məskunlaşmış bütün köçkünlərin otaqları təmir olunur, yalnız onun yaşadığı otağı təmir etməkdən imtina edirlər. Bununla şəhid ailəsindən intiqam aldıqlarını göstərmək istəyir, bu cür səviyyəsizlik və mənəviyyatsızlıq edirlər. Rayon rəhbərliyi "Şəhid ailələri haqqında" Qanuna uyğun olaraq onu nə evlə təmin edir, nə də yaşadığı otağı təmir edir", - deyə müraciətdə bildirilirdi.

Həmçinin vurğulanırdı ki, şəhid ailəsi, məcburi köçkün Gözəl Məmmədova bu haqsızlıqlara dözməyib ölkə vətəndaşlığından imtina edərək, xarici ölkələrdən birinə çıxıb getmək istəyir.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

---

**Mən hələ İbiza adasında olmamışam, amma olmaq istəyirəm. Əlbəttə, burdan-bura Pirallahı adasında olmayan biri üçün uzaq İspaniyadakı İbiza adasına getmək xeyli fantastik ideyadır, amma arzularla yaşamaq ziyanlı şey deyil, əksinə, faydalıdır.**

**Samir SARI**



# Naşükür İbiza camaatı

İbiza adası nəinki İspaniyanın, hətta dünyanın ən məşhur əyləncə və turizm cənnətidir. Adanın iqlimi elədir ki, ilin böyük hissəsində orda istirahət mərkəzləri işləyir: çal-oynasın, vur-çatlasın, yemək-içmək, istirahət, əyləncə, kef-damaq. Yerli camaat da elə turistlərin hesabına ser kefində, lord ovqatında yaşayır.

İndi təsəvvür edin, təbiətin heç bir gözəlliyini, sərvətini əsirgəmədiyi adada, üstəlik, dünyanın ən bərkgedən neməti hesab olunan neft tapılıb.

Biz heç, tutaq ki, bu günə bu gün Nargində neft tapılsa, sevinərik və dərhal hansısa xarici neft şirkəti ilə hasilatın pay bölgüsünün sərfəli variantına dair kontrakt bağlayarıq, bonus və tranş alıb dərhal olimpiya stadionu tikərik. Amma neft yatağı qardaş Türkiyənin hansısa bir adasında aşkar olunsa, dövlət və xalq buna daha iti, daha sevincək reaksiya verər, qəzetlər "İŞTƏ MİLLİ PETROL!" manşetləri ilə çıxar, telekanallar neftin yatağında qazılan ilk buruqdan canlı yayın verər, bütün media neftin tapılmasını millətin nicatı, rifahı kimi qələmə verər, xeyli çalıb-oynayarlar.

Amma siz İbiza camaatının naşükürlüyünə, nankorluğuna baxın, adada neftin tapılması xəbəri onları məyus edib. Hətta "məyus edib" də o söz deyil, ibizalılar əməlli-başlı qeyzləniblər. O dərəcədə hiddətləniblər ki, etiraz aksiyası təşkil ediblər, hökumətə direşiblər ki, neft axtarışlarını dayandırsın.

Özləri ordan-burdan neft alan ispanlar narahatdırlar ki, neft onların gül kimi turizm sektorunun içinə bitum qoyacaq. Guya ki, ekologiya xarab olacaq, xaricilər adaya axışıb villa, otel, restoran tikmək əvəzinə buruq qazacaqlar, terminal tikəcəklər, yeraltı anbarlar qayıracaqlar, adaya sərnişin gəmiləri əvəzinə tankerlər yan alacaq və bir gün onlardan biri qəzaya uğrayacaq, nəticədə neft, mazut ləkəsi İbizanı dövrələyəcək, adanın laciverd sahillərini, çimərliklərini it gününə qoyacaq.

Ondan sonra kim İbizaya dincəlməyə gələr? Heç kim. Turist gəlməyəcəksə, camaat kasıblayacaq. Hamı bilir ki, "Neft xalqın sərvətidir" şüarı boş sözdür, onun xeyrini beş-altı adam görəcək.

Ona görə də o gün ibizalılar əllərinə "Neftə yox!"' şüarı götürüblər və lüt-ətcəbala soyunaraq ölkənin neft strategiyasına etiraz ediblər.

Xəbər verilir ki, heç demə, məşhur futbolçulardan Sneyder, Fiqu, Kasilyas, Zidanın, Serxio Ramos, Guti, Şakiranın əri Pike, Xavi və David Vilyanın İbizada villaları varmış. Hazırda onlar, eləcə də digər məşhur adamlar *(müğənnilər, modelyerlər, modellər)* adanın Neft Daşlarına döndərilməsinə qarşıdırlar.

Təbiidir. Neft olan yerdə daşınmaz əmlak toxunulmazlığı deyilən bir şey yoxdur. Əgər İspaniyanın neft geoloqları tapsalar ki, neft yatağının ən yaxşı fontan vuran buruğu Zidanın və ya Pikenin həyətinə düşür, İRDNŞ-in qoçuları ulduzların göz yaşına baxmayacaqlar, ekskavatoru, buldozeri gətirib deyəcəklər ki, bələdiyyə bu torpağı sizə qanunsuz satıb, çıxın, evləri sökürük. Müqavimət olsa, onda görərsiniz, o boyda Zidanı və ya Fiqunu (onsuz da ondan yanıqlıdırlar) Suliutəpədəki evinin sökülməsinə etiraz edərkən hospitallıq edilmiş İdrak Dadaşovun gününə qoyurlar, ya qoymurlar.

Hələ dünya güclərinin bu tapıntıya münasibətini də bilmək olmaz. Bir də gördün, İbizanı mübahisəli ərazi elan etdilər, araya qan-qada saldılar. Neft olan yerlər, adətən, elə olur.

Bu baxımdan İbiza camaatına haladır, neftə, qaza, digər karbohidrogen ehtiyatlarına ümid olmadan, təbiətin bəxş etdiyi sərvətdən maksimum yararlanıblar və indi istəyirlər ki, üzlərinə mazut qarası çəkilməsin.

---

# Dirilən Lenin və Azərbaycan müxalifəti

**Azər RƏŞİDOĞLU**



**Ölkə parlament seçkilərinə hazırlaşır. Yenə də iqtidar bütün prosesləri nəzarətində saxlamaq, müxalifət isə günahı eyni düşərgədə təmsil olunan, eyni aqibəti paylaşdığı simaların üzərinə atmağa cəhd göstərir.**

Baş verənlər sovet dönəminin məşhur lətifəsini xatırladır...

Siyasi büroda ölüləri diriltdən dərman kəşf edirlər. İlk növbədə Lenini dirildirlər. Lenin dirilən kimi qəzetləri istəyir və bir həftə onun yanına heç kimi buraxmamağı tapşırır. Bir həftə sonra gəlib onu tapmırlar. Yenidən dirildilən Stalin də beləcə aradan çıxır. Onları tapmaq üçün Dzerjinskini dirildirlər. O, kabinetdən Leninə məxsus belə bir məktub tapır. Hər şeyi təzədən başlamaq lazımdır, Helsinkiyə gəl...

Azərbaycan seçkilərə hazırlaşır. Ölkədə son illər ərzində keçirilən bütün seçkilər *(istər prezident, istərsə də parlament)* demokratik müxalifətin məğlubiyyəti ilə yekunlaşıb. Demokratiyaya düşmən olan qüvvələr demokratik seçki keçirməyə imkan verməyiblər. Qərb də gənc Azərbaycan demokratiyasını qoruya bilməyib. Azərbaycanda yaxın zamanda keçiriləcək parlament seçkisində də oxşar vəziyyətin təkrarlanacağı istisna edilmir.

Əslində bir az geniş bucaqdan baxanda, analoji siyasi mənzərəni postsovet məkanındakı ölkələrin əksəriyyətində görmək mümkündür.

Nə baş verir? Milli demokratik düşərgənin, bu düşərgəni təmsil edən insanların bu cür genişmiqyaslı böhranına səbəb nədir? Bəzi analitiklər bunu liberal ideyaların böhranı kimi dəyərləndirirlər, amma zənnimizcə, məsələyə təkcə bu rakursdan yanaşmaq düzgün deyil.

Əsas səbəb fiqurların krizisində və geosiyasi maraqlardadır. Postsovet məkanında sağ ideyaların daşıyıcısı olan siyasi fiqurların demək olar ki, mühüm bir hissəsi cəmiyyətin nəzərində şübhəli imicə malik insanlardır, toplum onlara inanmaq, etibar etmək istəmir.

Düzdür, bu insanların çoxu əxlaqlı siyasətin daşıyıcılarıdır, lakin MDB məkanı belə insanlar üçün qəbiristanlığa çevrilib.

Belə siyasətçilər isə hətta ən ali ideyanı da xilas edə bilməz; əksinə, ideyanın özü gözdən düşəcək.

Hazırda postsovet məkanında bu proses gedir: "işlənib-tükənmiş" fiqurlar demokratik ideyaları gözdən salırlar, sonra əks əlaqə başlayır - demokratik ideyalar öz daşıyıcılarına fayda gətirmək qabiliyyətini itirir; cəmiyyət əks ideyalara maraq göstərməyə başlayır.

Həmin əks ideyalar isə dövlətin başına gələrək, xaosa son qoymağı bacaran şəxslərin yürütdüyü xəttin ətrafında formalaşan ideologiyadır. Diktaturalar məhz belə başlanır. Diktatura istənilən ideyadan daha cazibəli görünür, çünki hər halda, praktik əsası var.

Hətta nəzəri ideologiya nə qədər əsaslı və gözəl olsa belə, onunla daha rəqabət apara bilmir.

Odur ki, ideyaları iflasa uğradan siyasətçilərin "diktatorların övladları" olduqlarını vurğulasaq, heç də səhv etmərik.

Cəmiyyət daima yeni impulslar həsrətindədir. Yeni texnologiyalar tətbiq edilməyəndə isə cəmiyyət donur. Daima yeni nəfəs tapıla bilər. Əsas məsələ yenilik axtarışında olmaqdır.

Hər şeyi sıfırlamaq, yenidən başlamaq lazım gəlir.

Yuxarıdakı lətifədə göstərilən kimi, Lenini dirildəcək dərman mövcud deyil. Deməli, dəyişiklik düşüncədə olmalıdır.

İllərdir eyni adamlar, eyni siyasi təşkilatlar heç nəyi dəyişmədən sadəcə eyni birlikdə təmsil olunurlar, lakin ortada qələbə yoxdur. Söhbət təşkilatların adından, sayından getmir. Cəmiyyət real, güclü bir fəaliyyət gözləyir. Ona görə də güclü bir fəaliyyət olmayan yerdə təşkilatların, birliklərin dəyişməsi, ya dəyişməməsi əsas məsələ deyil. İndiki mərhələdə cəmiyyət müxalifətə inanmaq üçün onu fəal görmək istəyir. Hazırda müxalifətin qeyri-fəal olmasının bir çox obyektiv və subyektiv səbəbləri də var. Çünki çox vaxt seçkidən sonra müxalifət özünə gələnə qədər passiv, böhranlı vəziyyətdə olur. Lakin böhrandan çıxmaq lazımdır. Məğlubiyyəti bir daha yaşamağa isə artıq dözmək imkansızdır. Sıfırlanmaq zamanıdır...

YENİ MÜSAVAT
N 63 (6091) 27 mart 2015




# Xanım Zəhra (s.ə) zirvəsinin bəşəriyyətə təsirləri

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rəhmənir-Rahim! Əziz İslam Peyğəmbərinin (s) gözünün nuru, xanımlar Xanımı Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadət tarixini geridə qoymuşuq. Başda Zəmanə Sahibi (ə.f) olmaqla İslam ümmətinə Xanım Fatimeyi Zəhranın (s.ə) ürəklərimizi xüsusilə yandıran şəhadəti münasibətilə başsağlığı veririk.**

Xanım Zəhra (s.ə) haqqında danışmaq çox məsuliyyətlidir. Daha dərin elmi bəhsə daxil olmazdan öncə demək lazımdır ki, Xanım Zəhranı (s.ə) tanıtdırmaq istəyəndə, onun kimliyini başa salmaq üçün sadə bir ibarə bəs edir - Ümmü Əbiha (s.ə). Bu, nə gözəl ailədir ki, ana - Ümmü Əbiha (s.ə) adlanır, qızı - Zeynəb (s.ə) adlanır. Hər ikisinin adlarında "əb" sözü var. "Əb" - yəni ata. Ümmü Əbiha - yəni "Atasının anası". Həzrət Fatimeyi-Zəhra (s.ə) - Ümmü Əbihadır - "Atasının anası"dır. O, Həzrət Peyğəmbərin (s) qızıdır və o Həzrətin (s) ana kimi müqəddəs və yüksək məqamla ünvanladığı bir şəxsiyyətdir. Xanım Zeynəb (s.ə) - Həzrət Əlinin (ə) və Xanım Zəhranın (s.ə) qızıdır. O, Zeynəbdir - "Atasının zinəti"dir.

## Ümmü Əbiha - Atasının anası

Atasının Anası... Bu ibarə ilə bağlı çox izahlar verilir. Fəlsəfi izahlar da verənlər var, ədəbi izahları verənlər də var, yaşayışdan nümunələr göstərərək izahlar verənlər də var. Amma bu, bir tarixi faktdır ki, Xanım Fatimeyi-Zəhra (s.ə) Ümmü Əbiha adlanır. Bütün bu səbəblər də bir yerdə cəmləşib. Yaradılış baxımından da bu adın ciddi izahları var. Xüsusi cəhət budur ki, Xanım Fatimeyi-Zəhra (s.ə) Məkkə dövründə uşaq idi. Rəsulallah (s) "Lə İləhə İlləllah"ı topluma çatdıranda o Həzrətin (ə) mübarək cisminə daş atırdılar, üzərinə kül tökərdilər. Evə gələndə Həzrət Zəhra (s.ə) üzünü təmizləyərdi, başını darayardı, təmizləyərdi. Peyğəmbərimiz Həzrət Muhəmməd (s.ə) uşaqlıqdan yetim qalmışdı. Həzrət Zəhra (s.ə) ona ana nəvazişi ilə qayğı göstərərdi.

Xanım Fatimeyi-Zəhra (s.ə) Zəhra ilə bağlı bir nöqtə xüsusi olaraq diqqət çəkir. Mütəxəssislər bildirirlər ki, bir insanı dəyərləndirərkən bir neçə baxımından dəyərləndirirlər. Biri budur ki, insanlar var nə yaşayışı vaxtı, nə də öləndən sonra özləri ilə bağlı heç bir təsir qoymurlar. İnsandır, yaşayır, ölüb gedir, olmaqlığı ilə yoxluğu arasında heç bir fərq hiss olunmur. Nə yaşadığı müddət ərzində, nə də öləndən sonra müsbət və ya mənfi təsiri olmur.

Ümumilikdə təsirlər müsbət və mənfi olur. Misal üçün, Peyğəmbərimizin (s) təsiri o qədər müsbətdir ki, üstündən 1400 il keçəndən sonra da milyonlarla insanı hər il hidayət edir. Amma misal üçün, Yezidin (lən) təsiri o qədər mənfidir ki, indiyə qədər bütün yaxşı insanlar tərəfindən lənətlənir. Amma özündən sonra heç bir təsirə malik olmayan insanlar da olur.

Elə insanlar da var ki, yalnız yaşadıqları zaman kəsimində təsirləri olur. Yaşadıqları zamanda elə zənn edirlər ki, Yer onların ətrafında fırlanır. Başlarını yerə qoyandan sonra məlum olur ki, bütün mövcudiyyətləri bitdi. Öləndən sonra nə vaxtsa olmaqları ilə olmamaqlıqları arasında heç bir fərq sezilmir. Belə insanlar da çoxdur. Yaşayanda elə bilərlər ki, Günəş onlara görə mövcuddur. Başlarını yerə qoyarlar - yaxınları, qohum-əqrəbası onları güclə yada salar. Hələ onlar da bilinmir necə yada salarlar.

## Hər zaman təsir qoyan misilsiz dəyərli varlıq

Üçüncü növ insanlar var ki, onlar yaşadıqları zamanda da təsir qoyarlar, vəfatlarından sonra da təsir qoyurlar. Mütəxəssislər Xanım Fatimeyi-Zəhranın (s.ə) həyatını buraya aid edirlər. Xanımın (s.ə) bu mənada təsirləri fövqəladə dərəcədədir.

İnsan dünyadan gedəndə üç müstəvidə təsir qoya bilər. Xanımın (s.ə) şəxsiyyəti, yaşayışı və mübarək şəhadətində bu üç təsirin hər biri ən bariz şəkildə öz əksini tapır. Bunlardan birincisi - fiziki təsirdir. Yəni insan dünyada gedir, onun nəslindən olan övladları, nəvələri, nəticələri olar. Yaşadığımız dünyada əlli milyondan artıq insan Xanım Fatimeyi-Zəhranın (s.ə) müqəddəs nəslinə aid olaraq mövcuddur. Dünyada əlli milyondan artıq seyid, Xanım Fatimeyi-Zəhranın (s.ə) övladlığını daşıyır. Vaxt var idi, kafirlər Həzrət Peyğəmbərə (s.ə) "əbtər", yəni "sonsuz" deyirdilər. Nəticə tam əksinə olur. Onlar sonsuz olur, Peyğəmbərin (s) nəslindən isə həm dünya üçün, həm də Qiyamət üçün Kövsər bulağı qaynayır. Ən aşağı rəqəmlə götürdükdə, bu gün dünyada 50 000 000 insan Həzrət Zəhra (s.ə) övladı olaraq mövcuddur. Bu, Xanım Zəhranın (s.ə) özündən sonra qoyduğu fiziki təsirdir.

Bəzən fiziki baxımından məsələyə baxanda, deyirlər ki, kiminsə filan yerdə məzarıdır, insanlar ona görə həmin yerə yığışır. Xanım Fatimeyi-Zəhra (s.ə) burada da istisna təşkil edir. Xanımı (s.ə) gedib ziyarət edəcək bir yerimiz yoxdur. Xanımın (s.ə) məzarı hələ də gizlidir. Amma, xatirəsi əzizdən də əzizdir.

## Xanımın (s.ə) davranışı və elmi təsiri

İkinci təsir - davranış və elmi baxımından olan təsirdir. Bir qədər də elmi cəhətdən desək, nümunəlilik təsiridir. İstər müsbət nümunələr, istərsə də mənfi nümunələr bu kateqoriyada ehtiva olunur. Tarixdə iz qoyan müsbət nümunələr olub, insanlar onlara baxıb, gözəl ibrətlər götürüb. Eyni zamanda mənfi nümunələr də olub.

Xanım Fatimeyi-Zəhranın (s.ə) - davranış təsirinin zirvəsidir. Xanımın (s.ə) nümunəliliyin zirvəsində olmasını göstərmək üçün bir bunu demək kifayətdir ki, Zəmanə Sahibi (ə.f) Xanım Fatimeyi-Zəhra (s.ə) haqqında buyurur: **"Rəsulallahın (s) qızında mənim üçün gözəl nümunə var"**. Bunu kim deyir? Bunu o kəs deyir ki, bəşəriyyət onun intizarındadır. Zəmanə Sahibi (ə.f) özü şəxsən Xanım Fatimeyi-Zəhradan (s.ə) davranış və rəftar baxımından nümunə götürür.

## Nəzəri, maarif təsiri

Üçüncü təsir də çox önəmlidir. Nəzəri, maarif, elmi baxımından insanın özündən sonra qoyduğu təsir. Müsəlmanlar Xanımın (s.ə) elmini nə qədər araşdırır - bu, ayrıca bəhsdir. Əhli-beyt (ə) üləması nə qədər araşdırır bu da ayrıca bəhsdir. Ümumən İslam üləması nə qədər araşdırıb, onu da bir tərəfə qoyaq. Fransanın "Sarbonna" universitetinin ən ciddi araşdırmaçılarından biri olan Lui Masinyon, zamanında Xanım Fatimeyi-Zəhra (s.ə) ilə bağlı müxtəlif dillərdən toparladığı bir neçə milyon qeydi olub. Onun arzusu olub ki, Xanım Zəhra (s.ə) ilə bağlı xüsusi ensiklopediya dərc etdirsin.

Əhli-beyt (ə) alimlərinin, İslam üləmasının bütün bu mövzuda araşdırma və qeydlərini nəzərə almadıq. Biz tam kənar bir araşdırmaçıların Xanım Fatimeyi-Zəhra (s.ə) ilə bağlı qeydlərinə diqqət etdik. Fransanın ciddi araşdırmaçılarından olan Lui Masinyon, Xanım Zəhraya (s.ə) aid müxtəlif dillərdən neçə milyon qeyd toplayıb. Bunlar diqqət olunmalı məsələdir. Lui Masionyon haqqında qısaca onu qeyd etmək olar ki, o, Anri Korben kimi böyük şəxsiyyətin müəllimi olub. Anri Korben isə bir insandır ki, İslam fəlsəfəsi, İslam mütəkəllimliyi mövzusuna öz imkanları daxilində işıq salıb.

Bir şəxsiyyətin bəşəriyyətin, insanlığın həyatına qoyduğu təsirlər budur. Bizlərin hər birimizin həyatına təsiri olan bir şəxsiyyətdir Xanım Fatimeyi-Zəhra (s.ə). Dünyanın hər bir yerində Əhli-beytə (ə) məhəbbəti olan insanlar o şəxsiyyətin şəhadət günlərində onun işığına toplaşır. Alimlər, mərcəiyyət Xanım Fatimeyi-Zəhranın (s.ə) şəhadəti ilə bağlı iki tarix ehtimal edir. Həm ilk ehtimal olunan şəhadət tarixinin üç günündə, həm də son ehtimal olunan şəhadət tarixinin üç günündə əzadarlıq mərasimləri keçirilir, Xanımın (s.ə) hüznlü şəhadəti anılır. Allah Təala bizlərə bunu yaşadanlardan olmağı nəsib etsin.

## Onun hər buyuruşunu İlahi əmr kimi qiymətləndirənlər

Xanım Fatimeyi-Zəhranın (s.ə) şəxsiyyətini anmaq, onun şəhadət günlərini yaşatmaq - İslamı yaşatmaq, İslamı diri saxlamaqdır. Əgər ümmət Peyğəmbər (s) vəfatında, vəfatdan öncəki həftələrdə və vəfatdan sonrakı dönəmdə, Xanımın (s.ə) şəhadətinə qədər olan dönəmdə baş verənləri mütaliə etməsə, bunlardan xəbərdar olmasa - təkrar-təkrar büdrəmə halları ilə qarşı-qarşıya gələ bilər. Bütün bu dövrləri təhlil edib, ümumiləşdirsək - bir məsələ aydın olar. O da bundan ibarətdir ki, müsəlmanlar əməli halda iki qrupa bölünmüşdürlər: Allaha, Onun Rəsuluna (s) və əmr sahiblərinə (ə) itaət edənlər və deyilənlərə itaət etməyənlər. Kimlər ki, bunu sözgəlişi deyil, əməli halda yaşadırdılar, onlar Peyğəmbərin (s) rehlətinə qədər də, sonra da və bütün bu dövrlərdə də öz imtahanlarını layiqincə verirdilər. Deməli, insan davranış və rəftarları bu məsələyə də qayıdır. Hətta deyə bilərik ki, insanın davranış və rəftarları - dünyagörüşünə, etiqada, imana qayıdır. Kimlər üçünsə əziz Peyğəmbər (s) - bir Allah elçisi idi ki, öz sözü yox idi, işi - Allah sözünü çatdırmaq idi. Onlar üçün Peyğəmbərin (s) hər buyuruşu bu dəyərdə idi. Onlar Peyğəmbər (s) ətrafına nə dünya ilə bağlı məsələlərə görə toplaşmışdılar, nə də dünya ilə bağlı narahatlıqları var idi. Onlar buna görə gəlmişdilər ki, Həzrət Peyğəmbər (s) Allahın buyuruşunu çatdırır. Əgər belə dərin etiqad olmasaydı, böhranlar yaranardı. Əhli-beytin (ə) başına gələnlər də əslində bu istiqamətdə olan sınaqlardan ümmətin yetərincə və layiqincə çıxa bilməməsi idi. Ona görə də, Xanım Fatimeyi-Zəhranın (s.ə) şəhadət günlərini yaşatmaq - birbaşa olaraq İslamı diri saxlamaqdır.

## Xanımın (s.ə) məxsusi zikri ilə Allahı xatırlamaq

Allah Təala Qurani Kərimdə "Bəqərə" surəsinin 152-ci ayəsində buyurur: **"Məni yada salın ki, sizi yad edim..."** Xanım Fatimeyi-Zəhranın (s.ə) məclisləri həm də Rəbbimizi xatırlamaqdır. Allahın xalis bəndələrini xatırlayarkən, insan Allaha tərəf yaxınlaşır. Peyğəmbərimizə (s) "əbduhu" (Allah bəndəsi) dedikdə, əslində biz o Həzrətin (s) Rəbbinə bağlanmış oluruq. Bu anlamda namazlardan sonra tövsiyə edilən Xanım Fatimeyi-Zəhranın (s.ə) məşhur təsbihi, zikri - əslində Allahı xatırlamaqla bağlı ən böyük vasitədir. Bu zikrdə - 34 "Allahu Əkbər", 33 "Əlhəmdulilləh", 33 "Subhənallah" deyilir.

Həzrət İmam Baqir (ə) buyurur: **"Həzrət Fatimənin (s.ə) təsbihi - o zikrlərdəndir ki, Allah ona əmr etmiş və buyurmuşdur ki, "Məni yada salın ki, sizi yada salım""**. Əslində "Bəqərə" surəsinin 152-ci ayəsində olan buyuruşun ən ciddi nümunələrindən biri - Xanımın (s.ə) bəlli zikridir. İnsan əslində hər o zikri deyəndə, Allahı xatırlamağa doğru gedir. Xoş olsun o kəslərin halına ki, hər zaman o zikri deyəndə mənalarına diqqət edir.

Həzrət İmam Sadiq (ə) buyurur: **"Hər kim Xanım Fatimeyi Zəhranın (s.ə) zikri ilə yuxuya gedərsə, Allahı çox yada salan qadın və kişilərdən olar"**. İnsanın gün ərzində, müxtəlif zamanlarda bu zikri deməsi - Allahı xatırlamasıdır. İnsan Rəbbini xatırlasa, O da bəndəsini xatırlamış olar.

Həzrət İmam Baqir (ə) buyurur: **"Hər kim Həzrət Fatimeyi-Zəhranın (s.ə) təsbihini deyərsə, bundan sonra istiğfar edərsə - bağışlanar. Bu, dildə yüz zikrdir. Ancaq əməl tərəzisində min hesablanır. Şeytanı uzaqlaşdırır və Allahı razı salır"**. Əslində Allahı xatırlamanın ən gözəl vasitələrindən biridir bu zikr. Bu zikrin görün nə qədər bərəkəti var. Tövbəyə, bağışlanmağa müqəddimə rolunu oynaya bilər. İnsanın bağışlanması üçün bir giriş rolunu oynaya bilər. Şeytanı (lən) insanın həyatından uzaqlaşdırar.

**Allahım, həyatımızın Səni xatırlamaqda keçməsini nəsib et!**

**Allahım, bizlərə dünya və axirətdə Xanım Fatimənin (s.ə) şəfaətini nəsib et!**

**Allahım, aqibətimizi Əhli-beytə (ə) məhəbbətlə qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 63 (6091) 27 mart 2015

# Çəkilməyən kanalizasiya xətti Lənkəranı bəlaya salıb












## Şəhər sakinləri qazılıb, sonra torpaqlanan yolların bərbadlığından cana doyub; camaat bazar yolu üçün Hadı Rəcəbliyə çağırış etdi; "Nizami" kinoteatrı da sökülüb

**Lənkəranlılar çəkilməyən kanalizasiya xətlərinin bəlasına düşüb. Şəhər sakinləri qazılıb, sonra torpaqlanan yolların bərbadlığından cana doyub. Əvvəlcədən kanalizasiya xətlərinin çəkilişi üçün yollar qazılıb tökülüb. Şəhərin mərkəzi və ara yolları dağılıb. Amma su xətti çəkiləndən sonra kanalizasiya sistemi çəkilişi planı yaddan çıxıb. Ona görə də yollar darmadağın olub. Lənkəranda avtomobillərin hərəkəti iflic olub. Maşınlar çala-çuxur, yamaq yollara görə tez-tez olur.**

***

Sürücülər deyirlər ki, kanalizasiya xətləri çəkmək istəmirdilərsə, qabaqcadan fikirləşmək lazım idi. Onların sözlərinə görə, dünyanın heç yerində, hətta uzaq Uqanda da belə ağıla batmayan addım atılmayıb. Apreldə isə ölkə başçısının rayona gəlişi gözlənilir.

Bəzi küçələr asfaltlanır. Sakinlər isə rayon rəhbərliyindən yolların tamamilə yaxşılaşdırılmasını xahiş edirlər. Camaat danışır ki, şəhərdə evlərə su xətləri çəkilsə də, kanalizasiya xətlərinin çəkiliş strukturunun mürəkkəbliyinə görə layihə təxirə salınıb.

Bu prosesin çətinliyi əvvəlcədən hesablanmayıb. Halbuki Masallıda kanalizasiya xətləri ən ağır mexanizm olsa da, çəkilib. Sakinlərin ən başlıca yol şikayəti isə "Böyük bazar" massivinin hələ də asfalt üzünə həsrət qalmasıdır. Lənkəranın mərkəzi bazarına gedən bu yol və avtobusların dayanacağı palçıq içində üzür.

Sakinlərin sözlərinə görə, dəfələrlə həm region telekanalında, həm televiziyalarda, mətbuatda bu yolun bərbadlığı işıqlandırılıb. Ancaq şəhərin ən qaynar, nəqliyyatın gur nöqtəsinə iki maşın asfalt töküb palçıqdan azad etmirlər. Mərkəzi bazara girmək üçün qaloş işə yarayır. İllərdir ki, bazar yolu acınacaqlı haldadır.

Üstəgəl, bu vəziyyətdə açıq havada ərzaq məhsullarının satışı təşkil olunur. Yol üstündə ət məhsulları, meyvə-tərəvəz, balıq və s. məhsullar satılır. Yan-yörədən ötən maşınların isə toz-torpağı, palçığı malların üstünə süpürür.

Bir müddət əvvəl bazarın içərisindən kənarda alver qadağan idi. Amma təzədən köhnə yazılmamış qaydalar qüvvədədir. Alverçilər yolun tən ortasında ərzaq məhsulu satır. Həm nəqliyyatın hərəkəti məhdudlaşır, həm də natəmizlik hökm sürür.

Hərçənd ticarətçiləri bazarın içərisinə sığışdırmaq, yolu isə asfaltlamaq mümkündür. Nədənsə bu problemi müəllimlərə dərsdən sonra əlavə işləməyi təklif edən deputat Hadı Rəcəbli də bircə dəfə qaldırmayıb.

Lənkərandan deputat olan H.Rəcəbli, görünür, ya "Böyük bazar"dan keçməyib, ya da maraqlı olmayıb. Sakinlər xahiş edirlər ki, deputat problemin həllində kömək etsin.

Prezident şəhərin Liman - Nərimanabad - Balıqçılar avtomobil yolunun tikintisi ilə bağlı sərəncam imzalayıb. 10 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun tikintisi üçün dövlət büdcəsindən 3,6 milyon manat ayrılıb. Sarı adasının ətrafında yerləşən balıqçı kəndlərinin yolları o dərəcədə bərbaddır ki, yalnız su və hava nəqliyyatı köməyə yetə bilər.

Odur ki, yolların abadlaşdırılacağı yerinə düşüb. Vaxtilə balıq ovuna qoyulan qadağaya görə üsyana qalxan Nərimanabad sakinlərinin şikayətini dinləməyə gedəndə yol məşəqqəti bürokratik əngəllərdən daha dəhşətli idi. Ancaq yol dərdi Nərimanabadla qurtarmır. Lənkəranın mərkəzi yollarına və ən əsası bazar yoluna diqqət yetirmək vacibdir.

***

Lənkəranda "Nizami" kinoteatrı sökülüb. Bu mədəniyyət ocağı müstəqillikdən bəri təyinatı üzrə fəaliyyət göstərmirdi. Son illərdə isə ümumiyyətlə, istifadəsiz idi. İndi kinoteatrın yeri boş sahəyə çevrilib, ərazi hasarlanıb.

Bu kinoteatr bir neçə il əvvələ qədər çayxana, daha sonra bilyard salonu kimi xidmət göstərib. Axır vaxtlar isə diqqətdən kənarda qalmışdı. Bəzi xəbərlərdə deyilirdi ki, bina artıq özəlləşdirilib. Amma sökülən mədəniyyət mərkəzinin yenidən qurulacağı bildirilir.

Mədəniyyət müəssisələrinin tikintisi və yenidən qurulması 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına salınıb. Eləcə də sözügedən kinoteatrın yenidən qurulması nəzərdə tutulub.

Şəhərin ən böyük kinoteatrı olan "Nizami" 1955-ci ildən ötən əsrin son onilliyinə qədər kinosevərlərin sevimli məkanı olub.

Lənkəranda ilk kinoteatr 1926-cı ildə fəaliyyətə başlayıb. İlk səssiz kinofilm "Spartak" adlanan kinoteatrda 1927-ci ildə nümayiş etdirilib. Ancaq indi yeri özəlləşdirilib və istifadəsiz qalıb. Ümumiyyətlə, Lənkəranda tarixi abidələr çoxdur.

Yuxarı Nüvədi kəndində qədim Əbirlər qülləsi, Şıxakəran kəndində Şeyx Zahid türbəsi, şəhərdə Kiçik Qala məscidi, Güldəstə minarəsi, Hacı Mirzə hamamı, Xan Evi kimi abidələr var. Xan evi artıq rekonstruksiya olunub.

Lənkəranda ictimai-siyasi təşkilatların fəaliyyətinə gəlincə, hazırda hakim partiyanın qərargahı var. Müsavat Partiyasının qərargahı indiki başqan müavini Yadigar Sadıqovun həbsindən əvvəl möhürlənib. AXCP-nin isə qərargahı yoxdur. Ümid Partiyasının qərargahı isə şəraitsiz, köhnə bir yerdir.

❑ **E.SALAMOĞLU**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Yuxuda ikən qan təzyiqinin yüksək qalxması**
* Səhərə yaxın yüksək qan təzyiqi
* **Boyun-baş bel-ayaq ağrıları və asteoxondorz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**

## Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**
**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT

Son səhifə

N 63 (6091) 27 mart 2015



## Qurbağa yedi, beynindən qurdlar çıxdı...

**Çinli qadının son 6 ildir baş ağrılarından əziyyət çəkməsinin qəribə səbəbi açıqlanıb. 29 yaşlı qadının durumunu araşdıran həkimlər onun uşaq vaxtı diri-diri qurbağalar yeməsinin orqanizmində ciddi problemlər yaratdığını deyiblər. Yen Meng ad-soyadlı qadın son 6 ildir nə qədər müalicə alsa da, nəticə olmayıb.**

Bir müddət əvvəl isə beyin tomoqrafiyası çəkdirən qadının beynində parazitlər olduğu aşkarlanıb. 8 santimetr uzunluğu olan qurdlar qadının sinir sistemini sarıb. Uşaq vaxtı qurbağalar yediyini açıqlayan qadın bu problemin onlardan qaynaqlandığını eşitdiyi zaman şoka düşüb. Həkimlər qadının beynindəki qurdları əməliyyatla təmizləmək istəyirlər.

# Yadplanetlilər türkcə danışır?

**İspaniyasının gizli servisi olan CNİ-nin yadplanetlilərlə bağlı gizli məlumatlarında onların türkcəyə yaxın bir dildə danışdığı bildirilib. İspanlara görə, yadplanetlilər türk dilinə yaxın bir dildə danışır. 2010-cu ildə hazırlanan sənədlərdə göstərilir ki, yadplanetlilər UFO adlı xüsusi gəmilərdə gəzirlər.**

Onların Günəşdən 4,3 işıq ili uzaqlıqdakı Alpha Centuari planetində yaşadığı, ətraflarındakı planetləri isə koloniyalara çevirdikləri bildirilir. Məlumatlarda həmçinin tez-tez Yer kürəsinə baş çəkən yadplanetlilərin iki cinsə ayrıldıqları deyilir: birinci cinsə mənsub olanlar insanlara çox bənzəyir. Onlar yüksək səviyyəli texnologiyaya sahibdirlər.



Türkcəyə bənzər bir dildə danışdıqları deyilən yadplanetlilər haqda Amerikada da araşdırma aparılıb.

İspanlar bu məlumatları Amerikanın araşdırma qurumlarından aldıqlarını da bildiriblər.

# İnsanabənzər robotla "müsahibə"

**ABŞ-ın texnologiya şirkəti olan United Therapeuticsin hazırladığı insani robot "The Nyu-York Times" qəzetinə "müsahibə" verib. Robot dizayneri David Hansonun 3 illik çalışmaları nəticəsində 125 min dollar xərcləyərək hazırladığı robot olduqca ağıllıdır. Yeni robot şirkətin rəhbəri Martin Rotblatın həyat yoldaşı Bina Aspenin zehninə uyğun olaraq hazırlanıb. Mütəxəssislər əvvəlcə Bina ilə 20 saatdan çox bir müddətdə uşaqlığı, karyerası, düşüncələri ilə bağlı söhbət ediblər. Daha sonra bu məlumatları xüsusi bir cihazla "Bina 48" adlı robotun "beyni"nə yükləyiblər. Robot qəzetin müxbirinin verdiyi suallara Aspen Bina kimi cavablar verib. Onun üz mimikalarını idarə edə bilməsi üçün 30 mini motoru var.**

Martin Rotblat robotun arvadına bənzədilməsinin səbəbini belə açıqlayıb: "Həyat yoldaşım öldükdən sonra da onun bir parçasını həyatımda görmək və onun düşüncələrini dinləmək istəyirəm. Mənim atdığım bu addım insanları ölümsüzləşdirməyə kömək edəcək".





## 530 il sonra dəfn ediləcək

**2012-ci ildə bələdiyyə işçilərinin qazıntı zamanı tapdığı İngiltərə kralı III Riçardın sümükləri müharibə zamanı həyatını itirdiyi Leicestershire bölgəsində dəfn ediləcək. İngiltərə mediasının xəbərinə görə, Lecestr Universitetinin arxeoloqlarının 3 il üzərində araşdırma apardıqları cəsəd üçün cənazə mərasimi təşkil ediblər. Cənazə maşınına qoyulan tabut maşın korteji ilə birlikdə 530 il əvvəl həyatını itirdiyi yerə gətirilib.**

Kralın qəbri 3 il əvvəl tapılsa da, onun kimə aid olduğunu araşdırmağa uzun müddət sərf edilib. 1480-ci illərdə İngiltərəni idarə edən III Riçard 1485-ci ildə Bosvort müharibəsində həyatını itirib. Cəmi iki il taxtda qalan kral müharibədə həyatını itirən son ingilis kral olaraq tarixə düşüb.



## 92 yaşında dirildi

**Bir neçə gün əvvəl Almaniyada baş verən hadisə hər kəsi şoka salıb. Hassel bölgəsindəki qocalar evində qalan qadın səhər yatağında ölü olaraq tapılıb. 92 yaşlı qadının baxıcısı onu oyandırmağa gəldiyi zaman nəfəs almadığını görüb. Həkimlərin müayinəsindən sonra öldüyü müəyyənləşdirilən qadın dəfn mərasimi üçün hazırlanıb.**

Lakin yaşlı qadın tabuta qoyularkən nəfəs almağa başlayıb. Səs-küy salaraq ölmədiyini hər kəsə bildirən qadın qısa müddətdə xəstəxanaya çatdırılıb. Qadının dirilməsi ətrafdakıları şoka salıb. O, bir neçə saat xəstəxanada qalsa da, ürək çatışmazlığından həyatını itirib. Roza B. adlı qadının müəmmalı ölümü qocalar evi haqqında dedi-qoduların yaranmasına səbəb olub.

## Qoroskop




**QOÇ** - Bürcünüz üçün əlamətdar təqvimdir. Əlaxüsus da fəaliyyətlə bağlı proseslərdə vəziyyət xeyrinizə dəyişəcək. Atacağınız hər bir addımı daha çox özünüz müəyyənləşdirməyə çalışın.

**BUĞA** - Təzadlı vaxtdır. Proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətdə cərəyan edə bilər. Belə məqamlarda hadisələrə obyektiv qiymət verməlisiniz. Vaxt tapıb ziyarətgahlara da gedin.

**ƏKİZLƏR** - Bu mürəkkəb təqvimdə büdcənizdə ciddi artım olacağı labüddür. Boş məsrəflərə xərc çəkməkdənsə bir az qənaətcil olun. Yaxın dostlarınıza və qohumlarınıza qarşı unutqan olmayın.

**XƏRÇƏNG** - Bütün qərarları yalnız özünüz verin. Tam bələd olmadığınız və ya şübhə ilə yanaşdığınız adamların məsləhətlərinə əhəmiyyət verməyin. Ulduzlar varlanacağınızdan xəbər verir.

**ŞİR** - Olduqca məhsuldar ərəfədir. Məhz bu amili nəzərə alıb qarşınıza qoyduğunuz planların icrasında aktivliyi əldən verməməlisiniz. Axşam maraqlı görüşlərdə iştirakınız mümkündür.

**QIZ** - Bu gün mütləq əzmkarlığınızı artırmalı, dinclik bilməməlisiniz. Ailə-sevgi məsələlərində təşəbbüskarlığı ələ alın. Bunun nə dərəcədə səmərəli olduğunu yaxın vaxtlarda mütləq görəcəksiniz.

**TƏRƏZİ** - Neçə müddətdən bəri daxili sıxıntılarınıza səbəb olan bəzi problemlərin həllinə işıq düşəcək. Özünüzdən əvvəl gələn bürclərlə müqayisədə ümumi ovqatınız daha qənaətbəxş olacaq.

**ƏQRƏB** - Qarşınızda duran sürprizlərdən istifadə edə bilsəniz, uğurlarınız xeyli artacaq. Daxili gərginliyiniz də aradan qalxmalıdır. Hər bir situasiyaya obyektiv qiymət verməyə çalışın.

**OXATAN** - Səhər saatlarında ovqatınızı qoruya bilsəniz, axşama qədər heç bir narahatçılıq keçirməyəcəksiniz. Ulduzlar dostlarınızla birgə olmağınızın əhəmiyyətindən xəbər verir.

**OĞLAQ** - Yalnız nahar ərəfəsində müəyyən mübahisələrə cəlb oluna bilərsiniz. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər əhval-ruhiyyənizin yüksəlişinə xidmət edəcək.

**SUTÖKƏN** - Hazırkı gərginliyinizi dəf etmək üçün ürəyinizə yaxın olan dost-tanışlarınızla təmas qurun. Bu arada bəxtiniz daha çox ailə-sevgi münasibətlərində gətirəcək. Pulsuzluqdan şikayətlənməyin.

**BALIQLAR** - Daha çox səhhətinizin qayğısına qalın. Bu səbəbdən də işlə bağlı müəyyən passivliyiniz nəzərə çarpacaq. Ciddi məbləğdə pul xərcləməkdən, uzaq yola çıxmaqdan vaz keçin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu don üçün 760 xoruz kəsilib

**Türkiyəli müğənni yeni albomunu tanıtmaq üçün maraqlı addım atıb. Bu dəfə müğənni albomundan çox, yəqin ki, geyimi ilə müzakirə mövzusu olacaq. Sibel Pamukun bu donu gündəmə damğa vuracaq.**



Belə ki, "Ayna" albomunun tanıtımı üçün hazırlanan fotosessiyada müğənni xoruz tükündən olan kürkə bənzəyən geyim geyinib. Bu qırmızı geyimin hazırlanması üçün isə 760 xoruz kəsilib. Kəsilən quşların ən gözəl iri tükləri seçilərək təmizlənib və al qırmızı rəngə boyanıb.

"Kəsilən xoruzların ehtiyacı olan ailələrə paylamışıq. Heyvansevərlər mənə acıqlanmasınlar. Pis bir şey olsa qəbul etməzdim".

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300